Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



***Həqiqət yeni-yeni adlar bulacaq,***
***kainat olduqca, onlar qalacaq***

Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı – 2023**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Həqiqət yeni-yeni adlar bulacaq, kainat olduqca, onlar qalacaq -** Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova;- Bakı:F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2023. – 52s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

Tərtibçidən

Qədim tarixə və zəngin mədəniyyətə malik Azəbaycan xalqı bəşəriyyətə elə şəxsiyyətlər bəxş edib ki, onların xeyirxah əməlləri, xoş məramları mənəvi ölməzlik qazanıb, ədəbiyyətə qovuşub.

Hər dövləti tanıdan onun şəxsiyyətləridir. Ziyalı şəxsiyyətlər nə qədər çox olsa, həmin vətənin adı da o qədər uca tutular. Bizim vətənimiz Azərbaycanın da çox vətənpərvər ziyalıları olmuşdur. Gəlin biz tarixi vərəqləyib bir daha o şəxslərə nəzər yetirək.

Hər bir cəmiyyətin əsasını maddi və mənəvi sferalar təşkil etdiyi kimi, onun hər bir fərdinin isə ali məqsədini bu sferaların tələblərinə uyğun surətdə ahəngdar formalaşması təşkil etməlidir. Yüksək mənəvi və əməli xüsusiyyətlər daşıyan ziyalılar bu formalaşma prosesində hər bir fərdin yanında olmalı, onlara düzgün yol göstərməlidirlər. Ziyalının ictimai funksiyası təkcə bununla kifayətlənmir, o, eyni zamanda dəyişən zaman və şəraitlərə müvafiq olaraq yeni ideyalar hazırlamalı və həyata keçirməlidir. Bu mənada ziyalılıq özünü mütəmadi olaraq müsbət yaradıcı ideyalara sahib olmaq və onları davamlı surətdə fərdi olaraq həyata keçirmək, qabiliyyət və bacarıqlarının birliyində biruzə etdirir. Buradan belə aydın olur ki, əgər ziyalı ağacdırsa, ziyalılıq onun meyvələridir.

Ziyalının formalaşmasına cəmiyyət mühiti fəal təsir göstərir, digər tərəfdən isə cəmiyyət daxilində ziyalı keyfiyyətlərinin daha çox təbliğ olunması cəmiyyət həyatının daha çox sağlamlaşdırılmasına şərait yaratmış olur. Cəmiyyət həyatının qlobal sağlamlaşdırılmasında öz öncül funksiyaları ilə ziyalı mahiyyətcə ziyalılığın sosial statusunun əyani daşıyıcısı kimi çıxış edir. Yəni ictimai həyatda ziyalı

ziyalılıqdan, ziyalılıq isə ziyalı olmaqdan keçir, məzmunca fərdi xüsusiyyətlər daşısalar da, əməli fəaliyyətdə biri digərini tamamlayır.
Ziyalı bütöv bir xalqın, millətin xoşbəxtliyinin nurlu mayakı, bugünü və gələcəyidir. O, öz nurunu, ziyasını elinə, xalqına, millətinə bağlılıqdan alır və sonda əməli olaraq yenə də onlara bəxş edir.
Ziyalı nuru hiss olunmayan məkan və şərait zülmət və naqislik əsarətində olar. Xeyir öz mübarizəsində şərə, işıq isə qaranlıq və zülmətə qalib gəldiyi kimi, ziyalı ziyası da zülmət və naqislik əsarətinə üstün gələr, onu öz odu ilə əridib sabahın aydın şəfəqlərinə qovuşdurar.

30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü məqsədilə kitabxanada kitab sərgisi keçirilə bilər. Sərgiyə müxtəlif başlıqlar verilir: "Faciəli ömrün qəmli dastanını yazanlar", "Əsrinə sığmayan böyüklər", "Nurlu ömrün işığı", "İşığınız sönmədi, sönməyəcək", "Cavidin söz dünyası", "Düşüncə insanlarının acı taleyi", "Gözəlliyə, sevgiyə tapınan həqiqət aşiqi", "Ömrün şah əsəri", "Zamanın və məkanın fövqündə yüksəlmişlər", "Məhəbbətin qələbəsi", "Qaranlıqda parlayan nurlar", "Düşüncə və ideyanın vəhdəti", "Başdan-başa Aşiqlər", "Haqq yolçuları", "Yaşadığı illərə sığmayan söz ustadları", "Repressiya ocağının işığında", "Keşməkeşli məhbuslar", "Azadlıq nəğməkarları", "Haqqı özünə, yaradıcılığı xalqa qaytarılan sənətkarlar", "Vaxtın fövqündən baxan mütəfəkkirlər dünyası", "Faciəli ömrün qəmli dastanı", "Taleyinin ən böyük və kəskin dramı", "Əsrin romantik şairi", "Turan mələkləri", "Baş tutmamış çevriliş", "Ölümə qarşı", "Açılmamış səhifələr", "Qara burulğanın qara üzü", "Gördüklərim yuxu deyildi", "Repressiya qurbanları",

“Azadlıq aşiqlərinin ömür yolu”, “Acı taleyin böyük səsi”, “Qəlbi Vətən olan ziyalılar”, “Haqqı hayqıranlar”, “Gödək ömürlərin uzun salnaməsi”, “Azadlıq carçıları”, “Millətin yükünü-qəlbində daşıyan böyük oğullar” , “Repressiya yanğısı”, “Qəlbi bayraq şairlər”, “Sinəsində tufan qopan oğullar”, “Həm qalib, həm məğlubların zirvəsi”, “Azərbaycanın say-seçmə oğulları sırası”, “Şərəfli yolun sonu”, “Amansız hökmün qurbanları”, “Günahsız müqəssirlər”, “Vətən istiqlarından ruh alan vətən öncülləri”, “Vətən mücahidlərindən biri”, “Azərbaycan Cümhuriyətinin Dövlət Marşını yazan şəxsiyyət”, “Bir kərə yüksələn bayraq bir daha enməz”, “Vətən üçün yaşayanlar yaşadırlar bu torğı”, “Gözlə məni”, “Açılmamış səhifələr”, “Doğranmış budaqlar”, “Qanlı illərin daha bir qurbanı”, “Çətin ömrün gündəliyi”, “Tariximizdən səhifələr”, “Nurlu təfəkkür sahibləri”, “İnsanlar və talelər”, “Həyatını Azərbaycan xalqının milli-azadlıq hərəkatına həsr edən şəxsiyyətlər” və s. kimi başlıqlar verilə bilər. və s. Bundan başqa, sərgidə repressiya qurbanlarının foto şəkilləri (stend halında) və kitabları öz yerini almalıdır. Müxtəlif ədiblərin, alim və tarixçilərinin repressiya qurbanları haqqında yazdığı məqalələr, söylədikləri sitatlar da sərgidə nümayiş oluna bilər.

*Repressiya nədir?*

Repressiya latınca (repressio) sözü olub-cəza tədbirləri, dövlət tərəfindən həyata keçrilən cəzalandırma, təzyiq mənasındadır. Sovet imperiyasının başçıları, əsasən də Stalin və M.Bağırov tərəfindən törədilən qanlı hadisələr imperiyanın bütün ərazilərində olmuşdur. Kütləvi repressiyaların təşkilində türklərin qan düşməni olan ermənilərin xüsusi rolu olmuşdur.1930-50-ci illəri əhatə edən qanlı hadisələrdə xalqımızın minlərlə oğul və qızları xüsusi

amansızlıqla qətlə yetrilmişdir. İnsanların həbs qərarı 15-20 dəqiqə içərisində verilirdi. Sonra isə ya güllələnirdi, ya da Sibirə omürlük sürgünə göndərilirdi. Təkcə 1937-ci ildə Azərbaycanda 29 min nəfər "xalq düşməni" güllələndi və ya Sibirə sürgünə yollandı. Həmin ildə İsmayıllı, Şirvan, Cəbrayıl, Cəlillabad və b. rayonlarda keçirilmiş "gecə əməliyyatları" nəticəsində 70 min insan həbs olunaraq sürgün olundu, 3000 mindən çox insan isə qətlə yetrildi. Stalinin və onun əlaltılarının törətdiyi bu qətillər insanlığa qarşı törədilmiş cinayət idi. Bu faciədə Azərbaycan xalqı özünün yüksək milli intelektə malik oğul və qızlarının üç nəslini itirdi. Kütləvi repressiyaların təşkilində türklərin genetik düşmənləri olan ermənilər, xüsusən də daxili işlər orqanlarında rəhbər vəzifə tutan Sumbatov, Topuridze. Qriqoryan, Markaryan və b. mühüm rol oynamışdır.

*Repressiya faciəsi*

Azərbaycan tarixində baş vermiş ən böyük faciələrdən biri də 1920-ci illərdən başlayaraq 30 ilə yaxın davam edən repressiya olmuşdur. Belə ki, bu illərdə Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insan əsasən milli özünüdərk və milli dövlətçilik əqidəsinə, siyasi rejimin diqtəsinə deyil, milli hissiyatla düşündüyünə görə repressiyalara məruz qalmışdır.

Repressiya barədə ümumi təsəvvürləri belə ümumiləşdirmək olar:

1) Repressiya xalqın ən istedadlı vətəndaşlarını, ziyalılarını məhv etmişdir;

2) Repressiya olunanlar mövcud quruluşu qəbul etməmişdir;

3) Repressiya olunanlar öz "yoldaşlarının" donosları əsasında həbs olunmuşlar;
4) Əsərlərində sosialist cəmiyyətini tərifləyənlər salamat qalmış, tənqid edənlər repressiyaya məruz qalmışlar;
5) Repressiyaya uğrayanlar haqqında yazılan qəzet, ya jurnal məqalələri, yaxud ayrı-ayrı fikirlər onların repressiyasına səbəb olmuşdur.
6) Repressiya ancaq müxaliflərə yönəlmişdir.

Əslində siyasi hadisə hesab olunan repressiya XX əsrin 20-ci illərindən 50-ci illərin əvvəllərinə qədər davam etsə də, 1920-1940-ci illər arası baş verən hadisələr amansızlığı ilə xüsusi seçilmişdir.

İnsanların "əksinqilabçı", "trotskiçi", "casus", "millətçi", "üsyançı" kimi müxtəlif ittihamlarla kütləvi şəkildə məhv edilməsi Stalin, Beriya və onların ətrafındakıların bütün SSRİ-də həyata keçirdikləri dəhşətli bir siyasət olmuşdur. Repressiya illərində SSRİ-də ümumilikdə 1575259 adam həbs olunmuşdur. Bunlardan 173382 nəfəri guya "əksinqilabi" iş apardığına görə cəzaya məruz qalmışdır, 1344923 nəfər məhkum edilmiş, 681692 nəfər isə güllələnmişdir.

Repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmişdir. Bununla da Azərbaycan cəmiyyətinin ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi məhv edilmişdir. Bu bir faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları içərisində birinci yerdə durmuşdu. Əgər 20-ci illərdə birmənalı olaraq "əksinqilabçı" adı ilə Cümhuriyyətçilər, yaxud müsavatçı və ittihadçılar məhv edilir, həbs olunub

Solovki adalarına göndərilirdisə, 37-ci il repressiyası bir qədər qarışıq olmuşdur. Bu mərhələdə insanlar "xalq düşməni", "pantürkist", "sui-qəsdçi", "panislamist" yarlığı altında məhv edilirdi. Bu repressiya burulğanında kommunistlər də var idi. Belə ki, hətta kommunist partiyasının ən məşhur və vəzifə tutan nümayəndələri belə bu fəlakətdən canını qurtara bilməmişdir. Mərkəzdə (Moskvada) Siyasi Büro üzvlərinin ailələrinin repressiyası onun səbəb, məqsəd və icra strukturunun mürəkkəbliyini göstərdiyi kimi, siyasi müxtəlifliyindən asılı olmayaraq heç kəsə güzəşt olunmadığının da bir sübutudur.

Həmin dövrdə Azərbaycanda qətlə yetirilən insanlarla bağlı xüsusi plan hazırlanmışdı ki, o plana görə 3 ayda 1500 nəfərin güllələnməsi nəzərdə tutulurdu.

1937-ci və 1938-ci illərdə məhkəmədən kənar repressiyalar aparılmasına da qərar verilmişdir. Bütün ölkədə fəaliyyətə başlayan sessiya 15 dəqiqə ərzində dövlət ittihamçısının, vəkilin, bir çox hallarda müqəssirin iştirakı olmadan qərar çıxarmışdır.

Konkret Azərbaycanda ümumilikdə 1930-40 və 50-ci illərin əvvəllərində 70 min adam repressiya edilib ki, bunun da 29 min nəfəri ziyalılardır. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilib. Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.

Repressiyaya məruz qalanlar içərisində Abbas Mirzə Şərifzadə, Ayna Sultanova, Bəkir Çobanzadə, Cəmşid Naxçıvanski, Hüseyn Cavid, Mikayıl Müşfiq, Qambay Vəzirov, Ruhulla Axundov, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Əhməd Cavad və s. kimi

Azərbaycanın görkəmli elm, mədəniyyət və ictimai xadimləri olmuşdur. Bununla da repressiya Azərbaycanın ümumilikdə intellekt potensialına sarsıdıcı zərbə vurmuşdur.

Sovet hökümətі tərəfindən Azərbaycana, və həmçinin bütün SSRİ ölkələrinə qarşı həyata keçirilmiş, ölkənin bütün düşünən beyinlərinin sürgünə göndərildiyi və ya güllələnməsi əsasən repressiya Stalinlə Trotski arasında olan mübarizədən sonra qızışmış, trotksi pərəstişkarlarının təqib edilməsi adı ilə onlarla insanın yalandan ölkəyə qarşı casusluq etməkdə, azadlıq ideyaları yaymaqda, sovetin ali qayələrini pozmaqda günahlandırılması ilə həyata keçirilmişdir. Ümumiyyətlə, məncə, Azərbaycanın ən həssas dönəmidir repressiya.

1930-cu illərdə, qara paltarlılar deyilən xüsusi milislər gecələr evlərə gəlir (sanki o dövrün qara donlularıdır), əgər hadisə Bakıda baş verirsə seçilmiş yazıq insanları Bayıl həbsxanasına aparır, (bax: Bayıl həbsxanası) və ordan da bəxti gətirənləri sürgünə göndərirdilər.

1920-ci ildən başlayaraq 30 il davam edən faciə represiyya xalqın ən ziyalı, savadlı şəxslərini məhv edib. Onlar casus, xain, milliyətçi, üsyançı kimi ittihamlarla məhv edilmişdir. Repressiya illərində azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmiş, SSRİ-də ümumilikdə 1575259 adam həbs olunmuşdur. Bunlardan 173382 nəfəri guya "əksinqilabi" iş apardığına görə cəzaya məruz qalmışdır, 1344923 nəfər məhkum edilmiş, 681692 nəfər isə güllələnmişdir.

"1937-ci ilin repressiya qurbanlarından olan Ümgülsüm Sadıqzadə Məhəmməd Əmin Rəsulzadənin əmisi oğlu,

tanınmış yazıçı Seyid Hüseynlə evli olmuşdur. O da həyat yoldaşı ilə birlikdə repressiya qurbanı olmuşdur.”

Bir solğun çiçəyəm, bir sarı yarpaq
Candan şikayətkar, canandan iraq,
Çıxdım ki, yollardan alayım soraq,
Xəbər verən yoxdur, sorma dedilər!

Ayrılınca hilal qaşlı yarımdan,
Mən yaslara batdım, geymədim əlvan,
Düşünüb o ulduz gözləri hər an,
Ağlarkən özünü yorma dedilər!

Könül şikayətin kimə söyləsin,
Qəlbimin dərdini kimlər dinləsin?
Səni sevən, sənsiz ömrü neyləsin?
Dalınca qaçarkən, varma dedilər...

Mənim göylərimdən günəş çəkildi,
Parlaq həyatıma zülmət töküldü:
Vərəmli qəlbimə oxlar tikildi,
Qoy axsın qanları, sarma dedilər!

Günəşim bir daha doğmayacaqmı?
Vəhşi qaranlığı boğmayacaqmı?
Kölgələri şəfəq qovmayacaqmı?
Sordum, ümidini qırma dedilər.

Ümgülsüm Sadıqzadə

Həmin günü unutmamaq və gənc nəslə, eləcə də şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər:

30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü ilə əlaqədar olaraq, kitabxanada bir sıra

tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, səhnəciklər, oxucularla söhbət, icmal, kompozisiya, dəyirmi masa və s. keçirilə bilər.

30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü ilə əlaqədar olaraq kitabxanada keçiriləcək tədbirlərdən biri də *"Faciəli rolların qəhramanları"* adlı **"Konfrans"** dır. Tədbirdə ali məktəb tələbələri, tarix müəllimləri, yuxarı sinif şagirdləri iştirak edə bilər.

Kitabxanaçı iştirakçıları və oxucuları salamladıqdan sonra öz çıxışına keçid alır.

*Kitabxanaçı:* 1937-ci il repressiyasının xalqımıza vurduğu zərbələr haqqında çox yazılıb, çox deyilib. Onun acı nəticələri bu gün də bizi yandırmaqdadır. Azərbaycan ziyalılarının saxta ittihamlarla şərlənib sürgünlərə məhkum olunduğu, məhkəməsiz, sübutsuz güllələndiyi 1930-1938-ci illər tariximizin qanlı səhifəsidir. O qanlı illərdə həyatı alt-üst olmuş ziyalılar daha çox üstünlük təşkil edir. Azərbaycan xalqının mərd oğul-qızları 1937-ci illərin kütləvi cəza tədbirlərinin qurbanları sırasında idi. Neçə-neçə düşünən beyinlər, müdrik, ziyalıların həyatı söndürüldü...

*Kitabxanaçının dəyərli məlumatından sonra iştirakçılar öz çıxışlarına keçid alır.*

***I İştirakçı:*** XX əsrin 30-cu illərinin əvvəllərinə qədər artıq SSRİ-də həm Stalinin bolşevik partiyası daxilindəki əsas opponentləri, həm də bütövlükdə Sovet hökumətinə qarşı potensial müxalifət siyasi cəhətdən zərərsizləşdirilmişdi. Lakin proses nəinki bununla dayanmayacaq, hətta daha da şiddətlənəcək, şaxələnəcək və potensial opponentlərin kütləvi fiziki məhvini də ehtiva edəcəkdi. Bu siyasət ilk

növbədə Stalinin tam mütləq hakimiyyət qurmaq niyyətinin doğurduğu “zərurət” idi. O, partiyanın XVII qurultayını (yanvar-fevral 1934-cü il) ilk müxalifətsiz və fraksiyasız qurultay kimi dəyərləndirsə də, elə oradaca “daxili və xarici düşmənlərə qarşı döyüşə” çağırırdı.

Hələ bu qurultaydan xeyli əvvəl, 1932-ci ilin dekabrında, Stalin əleyhdarlarına qarşı repressiyaların həyata keçirilməsinin əsas mexanizmi olan yeni təmizləmələrə start verilmişdi.

Ümumittifaq Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitənin (ÜİK(b)P MK) Siyasi Bürosunun 12 dekabr 1932-ci il qərarına əsasən Böyük Təmizləmələr qarşıdan gələn 1933-cü il ərzində həyata keçirilməli idi. Lakin obyektiv və subyektiv amillərin təsiri nəticəsində proses 1930-cu illərin sonuna qədər uzandı. Kütləvi repressiyaların pik nöqtəsi 1933-cü ilə deyil, 1936-1937-ci illərə təsadüf etdi.

Bağırovun təyinatı. Respublika partiya və hakimiyyət orqanlarının xüsusi xidmət orqanlarının əlinə keçməsi 1933-cü ildə Moskva Azərbaycan SSR Kommunist (Bolşevik) Partiyasının birinci katibi vəzifəsinə uzun illər respublikada sovetlərin əsas təhlükəsizlik orqanı olan Əksinqilab və Sabotaja qarşı Fövqəladə Komissiyaya (Çeka) rəhbərlik etmiş Mir Cəfər Bağırovu gətirdi. Bu təyinatı ilk növbədə məhz, yuxarıda danışdığımız, Stalinin mütləq hakimiyyətə sahiblənmək niyyəti şərtləndirirdi. Sovet İttifaqının rəhbərinə Azərbaycanda onun əmrlərini qeydsiz-şərtsiz, ağına-bozuna baxmadan yerinə yetirəcək bir kadr lazım idi. Bağırovun tərcümeyi-halı onun məhz belə bir adam olacağına zəmin yaradırdı. Azərbaycan təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi müddətdə Bağırov özünü stalinizmin sadiq əsgəri kimi sübut etmişdi. Hətta bu sahədə bəzi hallarda ziyadə qəddarlıq nümayiş etdirərərək özünü “papadan artıq katolik” göstərməsi Moskvanın narazılığına da səbəb olmuşdu. Misal

üçün, 1930-cu ildə kollektivləşmə əleyhinə çıxan üsyançılara qarşı hərbi əməliyyatlardan birinə rəhbərlik edərkən, üsyançıların kəndi tərk etməsi barədə məlumatın olmasına baxmayaraq, kəndi artilleriya atəşinə tutması və nəticədə 30-dan artıq qadın və uşağın ölümü Moskvanın onu işindən uzaqlaşdırması ilə nəticələnmişdi.

Lakin indi vəziyyət başqa idi, Stalin kütləvi repressiyalara hazırlaşırdı və ən sərt üsullara əl atmaqdan qətiyyən çəkinməyən idarəçilərə xüsusi ehtiyac yaranırdı. Güman etmək olar ki, Bağırovun məhz bu xarakteri Azərbaycanın 1936-1938 -ci illərdə repressiya olunanların sayına görə qonşu Cənubi Qafqaz respublikalarını az qala iki dəfədən çox "ötməsinə", ümumiyyətlə, SSRİ-də öndə gedən 5-6 respublikadan biri olmasına öz "töhfəsini" vermişdi.

Sözsüz ki, Bağırovun təyin edilməsində dostu Lavrentiy Beriyanın təqdimatının rolu olmuşdur və o, məhz sonuncunun himayəsi ilə Azərbaycanda qeyri-məhdud hakimiyyətə yiyələnə bilmişdir. Beriya artıq 1932-ci ildən ÜİK(b)P-nin Zaqafqaziya Vilayət Komitəsinin (Zakkraykom) birinci katibi idi.

Bu ikisinin əlaqələri hələ 20-ci illərin əvvəllərindən başlamışdı. Qafqaz partiya təşkilatında onları "siam əkizləri" adlandırırdılar. Sovetləşmədən qabaq Azərbaycan Cumhuriyyəti dövründə (1918-1920) onlar birlikdə xüsusi xidmət orqanlarında çalışmış, 1921-ci ildə Bağırov Azərbaycanda Çeka rəhbərliyinə təyin olunduqdan sonra Beriyanı özünün müavini vəzifəsinə gətirmişdi. Daha sonra isə Beriya Çekanı əvəzləyən Dövlət Siyasi İdarəsinin (DSİ-QPU) bütün Zaqafqaziyadakı rəhbəri təyin edilmişdi. Partiya və dövlət iyerarxiyasında sürətlə irəliləyən Beriya 1932-1938-ci illərdə Zakkraykomun birinci katibi, 1938-ci ildən isə SSRİ Daxili İşlər komissarı və SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olmuşdu.

Beriya Bağırovu da Siyasi Büro (o vaxt Prezidium adlanırdı) üzvlüyünə namizəd seçdirməyə müvəffəq olur. Bu hadisə Stalinin ölən günü baş verir. Lakin bir az sonra Beriya məhv edilən kimi Bağırov da dərhal həbs olunaraq güllələnir.

***II İştirakçı:*** Beriya güclü bir şəbəkə qurmuşdu. Onun himayədarlıq etdiyi şəbəkə gizli polis orqanlarının əməkdaşları idi və digər şəbəkələrlə nüfuz və güc uğrunda mübarizə aparırdı. 1920-ci illərin əvvəlində fəaliyyətə başlayan şəbəkə 30-cu illərin əvvəlində Cənubi Qafqazda, həmin onilliyin sonunda isə Moskvada İttifaq səviyyəsində güc strukturlarına liderliyi ələ ala bilmişdi.

Azərbaycan partiya rəhbərliyinə yeni təyinatlar Azərbaycan Kommunist (bolşevik) Partiyasının Mərkəzi Komitəsinin və Bakı Komitəsinin (AK(b)P MK və BK) 10 dekabr 1933-cü il tarixli birgə iclasında baş verdi. İclas iştirakçıları Tbilisidən göndərilmiş L.Beriyanın təqdimatı ilə M.C.Bağırovu Azərbaycan Xalq Komissarları Soveti (XKS) sədri vəzifəsindən azad edib, AK(b)P MK və BK-nın birinci katibi seçdilər. AK(b)P MK-nın ikinci katibi Hüseyn Rəhmanov isə XKS-nin sədri oldu. H.Rəhmanovun əvəzinə AK(b)P MK-nın ikinci katibi vəzifəsinə S.Kudryavtsev gətirildi.

Azərbaycanda kütləvi repressiyaların həyata keçirilməsində əsas fiqurlardan biri olan A.Akopov bu iclasda BK-nın ikinci katibi təyin edilsə də, 1 fevral 1936-cı ildə AK(b)P MK-nın ikinci katibi postuna gətirildi və bu postda A.Aqrbanı əvəz etdi. Elə 1933-cü ildən də respublikanın bir sıra mühüm partiya və hökumət orqanlarında "çekistləşdirmə" prosesinə start verildi. 1933-1937-ci illərdə AK(b)P MK katibləri arasında M.C.Bağırovla yanaşı digər peşəkar çekistlər – Az.DSİ sabiq sədri A.Aqrba (1934-1936), Az.DSİ sabiq sədr müavini R.Qulbis (1932-1937) də yer almışdılar.

Digər peşəkar çekist Y.Novikova 1933-cü ildən etibarən MK-nın ən mühüm gizli məlumatlarının toplandığı MK Xüsusi Sektorunun Məxfi Hissəsinin müdiri təyin edilmişdi. Y.Novikova Azərbaycan çekasında M.C.Bağırovla eyni zamanda, 1921-ci ildə, fəaliyyətə başlamış sonuncu respublika XKS sədri təyin edilən zaman (1932-ci il) Y.Novikovanı da XKS Məxfi Hissəsinin müdiri vəzifəsinə gətirmişdi. Y.Novikova 1938-ci ilin noyabrında MK-nın ən mühüm orqanı olan Xüsusi sektorun müdiri oldu.

***III İştirakçı:*** 1934-cü ilin oktyabrında Azərbaycan SSR Ali Məhkəməsinin Xüsusi Kollegiyasının, 1936-cı ilin oktyabrından isə həmçinin respublika Ali Məhkəməsinin sədri vəzifələrini daşıyan T.Quliyev (1937-ci ilin noyabrında T.Quliyev Azərbaycan SSR XKS-nin sədri təyin edildi.), 1934-1936-cı illərdə Respublika Prokuroru işləmiş Əbdülhəmid Yaqubov və 1936-cı ilin oktyabrında respublika Ali Məhkəməsinin Xüsusi Kollegiyasının sədri təyin edilən Q.Şahverdiyan da peşəkar çekist idilər. 1933-cü ilin oktyabrında digər peşəkar çekist Əsəd Axundov respublikanın Baş Milis İdarəsinin rəisi oldu.

SSRİ Mərkəzi İcraiyyə Komitəsinin (MİK) 10 iyul 1934-cü il qərarına əsasən ölkədə mərkəzləşdirilmiş cəza orqanı Ümumittifaq Xalq Daxili İşlər Komissarlığı (ÜİXDİK ) yaradıldı. “Bu vaxtdan etibarən, siyasi polis, nizami polis, cinayət təhqiqatı xidməti, sərhəd qoşunları, daxili qoşunlar, 1934-cü ilin oktyabrından isə cinayət işləri ilə bağlı olan bütün sistem bir orqanın tabeliyinə keçdi. XDİK siyasi polisin sinoniminə çevrildi, halbuki, sonuncu yalnız onun bir hissəsi idi. Bütün bu nəhəng maşın birbaşa Stalinə tabe oldu”. Bununla yanaşı, müttəfiq respublikalarda da Xalq Daxili İşlər Komissarlığı (XDİK) yaradıldı. O zaman Azərbaycan SSR Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) tərkibinə daxil olduğundan burada ayrıca XDİK

ləğv edildi və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (MİK) özünün 22 iyul 1934-cü il qərarı ilə ZSFSR XDİK Azərbaycan İdarəsini təsis etdi. AK(b)P MK Bürosunun 25 iyul 1934-cü il qərarı ilə Y.Sumbatov-Topuridze ZSFSR XDİK Azərbaycan İdarəsinin rəisi, İ.Purnis isə onun müavini təyin edildilər. Qeyd olunan şəxslər və ZSFSR XDİK Azərbaycan İdarəsinin digər rəhbər işçilərinin böyük əksəriyyəti bolşeviklərə sonradan qoşulmuş və ziddiyyətli keçmişə malik olan çekist-karyeristlər idilər.

Məsələn, 1905-ci ildən menşevik partiyasının üzvü olan Y.Sumbatov məhz L.Beriyanın köməyi ilə 1921-ci ildə Azərbaycan çekasına sıravi işə qəbul olunmuş, 1922-ci ilin avqustunda respublika çekasının banditizmlə mübarizə şöbəsinin rəisi təyin edilmiş və partiya bileti əldə etmişdi. L.Beriya ilə yaxınlığı Y.Sumbatova M.C.Bağırovun etimadını qazanmağa yardım etmişdi. 1927-ci ildə M.C.Bağırov Tiflisə göndərilən zaman Y.Sumbatov da Azərbaycan xüsusi xidmət orqanlarının sıralarını tərk etmiş və onunla getmişdi. 1929-cu ildə M.C.Bağırov yenidən Azərbaycanın təhlükəsizlik orqanının rəhbərliyinə qayıdanda Y.Sumbatovu da özü ilə gətirmişdi. Nəhayət 1930-cu ildə M.C.Bağırov bir daha Azərbaycan xüsusi xidmətinin rəhbəri vəzifəsindən uzaqlaşdırılıb Moskvaya göndəriləndən az sonra Y.Sumbatov da Azərbaycanı tərk edərək öz karyerasını Tiflisdə davam etdirmişdi.

1932-1933-cü illərdə M.C.Bağırov Azərbaycan rəhbərliyinə təyin ediləndə Y.Sumbatovu bu dəfə də özü ilə gətirir və respublikada kütləvi repressiyaları əl-ələ verib, birgə həyata keçirirlər. 5 may 1933-cü ildə Sumbatov respublika xüsusi xidmət orqanının, yəni Azərbaycan Dövlət Siyasi İdarəsinin sədr müavini, 5 mart 1934-cü ildə isə sədri təyin edilir.

30-cu illərin ikinci yarısında Azərbaycan SSR-də baş verən kütləvi repressiyalar zamanı M.C.Bağırov və Y.Sumbatovun ən yaxın silahdaşlarından biri T.Borşev olmuşdu. O, bir çox cinayətkar aksiyaların, xüsusilə 200 nəfərin məhkum edildiyi məşhur "Əli-Bayramlı işinin" əsas təşkilatçılarından idi və repressiyalara məruz qalmış insanlara şəxsən işgəncə vermişdi.

***IV İştirakçı:*** Sumbatovla Borşev birbaşa Beriyanın şəbəkəsinə daxil idilər. T.Borşevin 30-cu illərdə və sonrakı dövrdə qeyri-adi karyerasında L.Beriya xüsusi rol oynamışdı. M.C.Bağırov 50-ci illərin ortalarında T.Borşevdən bəhs edərkən onu L.Beriyanın kadrı adlandırmışdı.

Həmçinin "Şamaxı işinin" əsas təşkilatçılarından biri olan X.Qriqoryan hələ 20-ci illərin əvvəllərində L.Beriya ilə birlikdə fəaliyyət göstərmişdi. "Şamaxı işi" 1937-ci il 27 oktyabrdan 2 noyabra qədər davam etmiş, həmin prosesdə Həmid Sultanov başda olmaqla 400 nəfər məhkum edilmişdi. 30-cu illərin II yarısı – 40-cı illərin əvvəllərində X.Qriqoryan L.Beriya və M.C.Bağırovun yaxından köməyi ilə XDİK Azərbaycan İdarəsinin Məxfi-Siyasi şöbəsində müxtəlif məsul vəzifələrdə çalışmış, sonra həmin idarənin Su şöbəsinin rəisi, Üçüncü şöbəsinin rəisi, 1943-cü ildə isə Azərbaycan SSR XDİ komissarının müavini vəzifəsini tutmuşdu.

1937-1938-ci illərdə Azərbaycanın müxtəlif rayonlarında, saxta ittihamlar əsasında kütləvi həbslər həyata keçirən XDİK-nın yüksək çinli məmurları olan A.Atakişiyev və R.Markaryan isə şəxsən M.C.Bağırovun yetirmələri sayılırdılar.

***V İştirakçı:*** 1937-ci ilin avqustundan etibarən repressiya səlahiyyəti Xalq Daxili İşlər Komissarlığının xüsusi "Üçlük"lərinə verilirdi. Azərbaycanın ilk "Üçlüyü"

M.C.Bağırovun təklifi ilə Y.Sumbatov, C.Axundzadə və T.Quliyevdən ibarət olmaqla yaradıldı.

"Üçlük" təhlükəsizlik orqanlarının göndərdiyi siyahıları yoxlaya bilər, vəkil və ya prokurorun iştirakı olmadan məhkəmə keçirə bilər və ölüm hökmü də daxil olmaqla istənilən qərarı qəbul edə bilərdi.

1936-1938-ci illərdə XDİK tərəfindən təhqiq edilən işlərə ya prokuror nəzarəti tamamilə olmamış, ya da formal xarakter daşımışdı. Həmin illərdə Respublika Prokurorları olmuş şəxslər (Əbdülhəmid Yaqubov, Bahadur Vəlibəyov, Ağahüseyn Əlihüseynov), nəinki, XDİK-nin qeyri-qanuni əməllərinə qarşı çıxmamış, əksinə, sonuncunun əlavəsinə çevrilmişdilər. Müxtəlif vaxtlarda "üçlüyə" ya M.C.Bağırov, ya Y.Sumbatov, ya da M.Rayev sədrlik etmişdilər. "Troyka"nın iclaslarında Mir Teymur Yaqubov (Üçlüyün üzvü, respublika komsomolu MK-nın birinci katibi, 1938-ci ilin əvvəlindən AK(b) MK-nın III katibi), Teymur Quliyev (Respublika Ali Məhkəməsinin sədri), İ.Lixovidov (Üçlüyün üzvü, XDİK qoşunlarının hərbi prokuroru), Ağahüseyn Əlihüseynov (Respublika Prokuroru) və s. aktiv şəkildə iştirak etmişdilər. 1937-ci ildə Troyka 2792 nəfəri ölüm hökmünə, 4425 nəfəri isə uzunmüddəli həbs cəzasına məruz qoymuşdur.

1938-ci il yanvarın 31-də Politbüro cəzalandırılmalı olan Anti-sovet ünsürlərin sayı ilə bağlı yeni qərar qəbul etdi. Bu qərara əsasən Azərbaycan SSR-də 2000 insana ölüm hökmü verilməli idi. Həmin il 10 000 nəfərdən artıq insan istintaqa cəlb olundu. Tək "Troyka" 7241 nəfərin istintaqı ilə məşğul olmuşdur. Troykadan başqa Hərbi Kollegiya, hərbi tribunallar və daimi məhkəmələr də fəaliyyət göstərirdi.

**VI İştirakçı:** Repressiya mühiti, hökumətin xüsusi xidmət orqanlarının nəzarətinə keçməsi, ölkənin sovetləşdirilməsində əlahiddə rol oynamış məşhur şəxsiyyətlərin belə kütləvi təqibə məruz qoyulması əhali arasında böyük xof yaratmışdı. Hüquq-mühafizə orqanlarına etibarın ölməsi əhalinin öz arasında belə etibarsızlıq, şübhə, inamsızlıq mühitinin yaranmasına səbəb olmuşdu. Hamı bir-birindən şübhələnir, cəmiyyətin tarixi bağ və ənənələri sürətlə sıradan çıxır, deqradasiyaya uğrayırdı. Bu deqradasiya mühitində donosbazlıq geniş yayılmış fenomenə çevrilirdi. Çoxları donoslardan rəqib gördüklərini, sevmədiklərini vurmaq üçün istifadə edirdilər. Fəqət donoslar həm də insanların özlərini sığortalamaq, mümkün təqiblərdən yaxa qurtarmaq üçün istifadə etdiyi üsul idi.

Həmçinin terror mühiti quldurluğun geniş yayıldığı hakimiyyət orqanlarında donosçuluğu qarşı tərəflər arasında mübarizə vasitəsinə çevirirdi. Bu, əyalətlərdə də mübarizənin geniş yayılmış aləti idi. Adi camaat sürətlə dövlət ritorikasını mənimsəyir və bundan öz məqsədləri üçün istifadə edirdi.

Donosların stili oxşar idi. Yazanlar özlərini sosializm, həqiqi bolşevizm uğrunda döyüşən və onu düşmənlərdən xilas etmək istəyən mübarizlər kimi təqdim edirdi. Yazılar adətən Stalinin, onun apardığı siyasətin tərifindən başlayırdı. Müraciətlərin xeylisi Moskvaya, SSRİ rəhbərliyinə ünvanlanırdı.

Azərbaycanın Moskvaya ən çox donos göndərilən regionlardan birinə çevrilməsi məhz Bağırovun repressiyalarının daha miqyaslı və çirkin olmasından irəli gəlirdi. Donos epidemiyası o qədər geniş yayılmışdı ki, yalnız Azərbaycan prokurorluq orqanları 1937-ci ildə 68 035 şikayət məktubu almış və 20 000 insanın işini məhkəməyə göndərmişdi. On minlərlə insan formal hüquq prosedurlarına

riayət edilmədən ölümə və ya həbs düşərgələrinə məhkum olunmuşdu.

İş o yerə çatmışdı ki, Azərbaycandan çox böyük sayda şikayətin getməsi SSRİ-nin rəhbərlərindən Molotovun da diqqətini çəkmişdi. 1938-ci il aprelin sonunda Bağırov Molotovdan rəsmi məktub almışdı. Həmin məktubda yalnız 1937-ci ilin ikinci yarısında Azərbaycandan 1477, 1938-ci ilin ilk üç ayında isə 699 şikayət məktubunun alındığı yazılmışdı. Molotov Bakıya göndərdiyi məktubda istehza ilə Azərbaycanda ayrıca donos nazirliyinin fəaliyyət göstərib, göstərmədiyini soruşurdu.

1938-ci ilin yanvarında Moskvada təmizləmələrin nəticəsinin müzakirə olunduğu respublika və vilayətlərin partiya katiblərinin yığıncağında Bağırova heç bir digər bölgədən Azərbaycandan olduğu qədər şikayət gəlmədiyi bildirilmişdi. Bağırov isə öz növbəsində donos epidemiyası ilə mübarizədə yetərsiz nəzarəti bəhanə gətirmiş və qayıdandan sonra yerli büronu sərt şəkildə tənqid etmişdi.

Artıq may ayının əvvəlində Bağırov Politbüroya Azərbaycan dövlət aparatını "Moskvaya şikayət göndərməyi təşkil edən antisovet elementlərdən" təmizləməyi tapşırdı. Hökumət rəhbəri və respublika prokuroru öz aparatlarından Moskvaya şikayət göndərən xalq düşmənlərini təmizləmək haqqında göstəriş aldı. İyulda Bağırov özünü sığortalamaq üçün Molotova "şikayət göndərənlərin əksəriyyətən repressiya olunmuş iran əsilli xalq düşmənlərinin qohumları" olması və lazımi tədbirlər görülməsi haqqında hesabat verdi. Amma Bağırov, həmçinin, donosçuluq əsasında həbs olunmuş bəzi repressiyaya məruz qalanları azad etmək məcburiyyətində də qaldı.

**VII İştirakçı:** 1938-ci ilin martından başlayaraq partiyadan qovulmuş, həbs olunmuş kommunistlərin rehabilitasiyasına başlanıldı və donosçular izahat verməyə çağırıldı. Baş prokuror Əlihüseynov respublika prokurorlarının yığıncağında bildirdi ki, 1938-ci ildən başlayaraq kompromat materiallara əsasən 402 kolxoz sədri və 1075 kolxozçu həbs olunub.

Həmçinin ölkədə 1937-ci ildə donosa əsaslanaraq 131 prokuror həbs olunmuşdu. 1938-ci ildə 100 iş yenidən yoxlanılmış və 22 prokuror işə bərpa olunaraq, 14 iftiraçı isə həbs edilmişdi.

Ümumən, Azərbaycan prokurorluğu Molotovun tələbindən sonra ona hesabat verirdi ki, 1938-ci ilin birinci ayında 15 000 əsassız həbs olunmuş insan həbsdən azad edilib, yüzlərlə donosçu isə bunun əksinə həbs olunub. Moskva çox məharətli oyun oynayırdı; repressiyaları başladır, onların şiddətli olması üçün sərt bir adamı respublikaya rəhbər təyin edir, işini rahat görməsi üçün ona tam səlahiyyət verir, bilərəkdən nəzarətdən kənar qoyur, sonra da Bağırovun özünü şiddətdə, həddini aşmaqda günahlandırmaq üçün əsas yaradırdı. Bir növ Moskva Bağırovla müqayisədə özünün daha mərhəmətli olması görüntüsünü yaradırdı.

Gələcəkdə məhz belə də olacaqdı. SSRİ prokuroru Bağırovu həmçinin 10 minlərlə azərbaycanlını məhv etməkdə günahlandıracaq, Bağırov isə “məni etdiklərimə görə şaqqalamaq da azdır” cavabı verəcəkdi.

30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü ilə əlaqədar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də *“Repressiya qurbanı olmuş qələm sahiblərimiz”* adlı **dəyirmi masadır**. Tədbir oxuculara həmin

günün mahiyyətini daha da yaxından tanıtmaq üçün nəzərdə tutulur. Dəyirmi masaya tarixçilər, tarixi şəxsiyyət və siyasətçilər, ictimai elm xadimləri, yazarlar, tarix müəllimləri dəvət olunur. Tədbiri açıq elan etmək üçün kitabxanaçı öz çıxışına keçid alır və adı gedən mövzu haqqında dəyərli məlumat verir.

*Kitabxanaçı:* 1920-ci ildən başlayan və 1937-ci ildə milli fəlakət və faciə şəklində bütün respublikanı bürüyən repressiya qurbanlarının sayı dəqiq məlum deyil. Lakin o aydındır ki, bəzi istisnalar nəzərə alınmasa, güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arasında min bir işgəncə ilə qətlə yetirilənlərin böyük əksəriyyəti Sovet rejimi, kommunist ideologiyası və mövcud quruluşa qarşı real və ciddi təhlükə yarada biləcək güc və zəka sahibləri idi. Nə qədər ağır və acı olsa da, bizdə olan məlumata görə, vaxtı ilə müvafiq instansiyalara müraciət edilmədiyindən Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində misilsiz xidmətlər göstərmiş bir çox repressiya qurbanı üzərindən hələ də qərəzli məhkəmə qərarı götürülməmiş və onlar bu gün də rəsmən bəraət almamışlar. Bu qəbildən olan bir çox ziyalının, şair, yazıçı, publisistin həyat və yaradıcılıq yolu tədqiq edilsə də, bu problemlə bağlı kitab və məqalələr yazılsa da, fikrimizcə, hələ görüləcək işlər çoxdur.

Ölkə arxivlərində müxtəlif illərdə ayrı- ayrı mövzular üzrə araşdırmalar aparılarkən, eyni zamanda, 1937-ci ildə repressiya olunan qələm əhlinin qısa tərcümeyi-halı, əsərləri barədə də məlumatlar əldə edilmişdir.

Beləliklə, 57 nəfərdən ibarət yazıçı, şair, publisist, naşir, mühərrirdən ibarət siyahı alındı.

**1. Axundzadə Əhməd Cavad Məmməd oğlu - şair.**
1892-ci ildə (bəzi sənədlərdə 1893-cü ildə göstərilmişdir) Şamxor rayonunun Seyfəlli kəndində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin səyyar Hərbi Kollegiyasının Bakı şəhərində keçirilmiş qapalı məhkəmə iclasının 12 oktyabr 1937-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. 17 dekabr 1955-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə Ə.Cavada bəraət verilmişdir.

**2. İsmayılzadə Mikayıl Müşfiq Mirzə Əbdülqədir oğlu - şair.**
1908-ci ildə Bakı şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin səyyar Hərbi Kollegiyasının 4 yanvar 1938-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. 23 may 1956-cı il tarixində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə M.İsmayılova bəraət verilmişdir.

**3. Hacı Kərim Sanıyev ( Sanılı) - şair.**
1878-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olmuşdur.
Dəfələrlə həbs edilmiş və günahı sübuta yetirilmədiyinə görə istintaq zamanı buraxılmışdır. 4 iyun 1937-ci ildə növbəti dəfə həbs olunmuş, istintaq zamanı işgəncə verilərək öldürülmüşdür. Azərbaycan SSR Prokurorluğunun 12 iyun 1957-ci il tarixli qərarı ilə H.Sanılıya bəraət verilmişdir.

**4. Əsgərov (Əsgərzadə) Salman Mümtaz Məmməd Əmin oğlu - ədəbiyyatşünas, şair, mətnşünas.**
1884-cü ildə Nuxa şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin 9 yanvar 1938-ci ildə keçirilən səyyar Hərbi Kollegiyasının hökmü ilə 10 il müddətinə azadlıqdan

məhrum edilmişdir. 17 noyabr 1956-cı ildə SSRİ Ali Məhkəməsinin qərarı ilə S.M.Əsgərova bəraət verilmişdir.

**5. Xuluflu Vəli Məmmədhüseyn oğlu - ədəbiyyatşünas, publisist.**
1894-cü ildə Şamxor rayonunun Dəllər kəndində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 12 oktyabr 1937-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 17 noyabr 1956-cı il tarixli qərarı ilə V.M.Xulufluya bəraət verilmişdir.

6. Əfəndiyev Qafur (Qantəmir) Sədrəddin oğlu - yazıçı.
1888-ci ildə Göyçay mahalı Potu kəndində anadan olmuşdur. SSRİ DİXK-in 21 iyun 1939-cu il tarixli Xüsusi iclasının qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsi cinayət işləri üzrə məhkəmə kollegiyasının 30 iyul 1956-cı il tarixli qərarı ilə Q.S.Əfəndiyevə bəraət verilmişdir.

**7. Rasizadə Hüseyn Cavid Abdulla oğlu - şair.**
1882-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur.SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 9 iyun 1939-cu il tarixli qərarı ilə islah-əmək düşərgəsində saxlanılmaqla, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndi yaxınlığında vəfat etmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsi 6 mart 1956-cı il tarixli qərarı ilə H.Rasizadəyə bəraət verilmişdir.

**8. Əhmədov Əliabbas (Müznib) Mütəllib oğlu - şair, publisist.**
1883-cü ildə Bakı şəhərində anadan olmuşdur. SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 27 avqust 1937-ci il tarixli qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. 28 avqust 1938-ci ildə Vladivostokdakı xüsusi məntəqədə vəfat etmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının 10 fevral 1959-cu il tarixli qərarı ilə Ə. Əhmədova bəraət verilmişdir.

**9. Mahmudzadə Əli Nazim Mahmud oğlu - tənqidçi.**
1906-cı ildə İranın Təbriz şəhərində anadan olmuşdur. SSRİ Ali Soveti Hərbi Kollegiyasının səyyar sessiyasının 13 oktyabr 1937-ci il tarixli qərarı ilə 10 il müddətinə azadlıqdan məhrum edilmişdir. 23 avqust 1941-ci ildə həbsxanada vəfat etmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 19 sentyabr 1957-ci il tarixli qərarı ilə Ə.Mahmudova bəraət verilmişdir.

**10. Sadıxzadə (Sadıxov) Seyid Hüseyn Mir Kazım oğlu - yazıçı, tənqidçi.**
1887-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1937-ci il iyul ayının 11-də 709 saylı orderə əsasən həbs edilmişdir. SSRİ Ali Məhkəməsinin 5 yanvar 1938-ci ildə keçirilən səyyar Hərbi Kollegiyasının qərarı ilə güllələnməyə məhkum edilmişdir. Hökm 5 yanvar 1938-ci ildə Bakı şəhərində icra olunmuşdur. 6 oktyabr 1956-cı ildə SSRİ Ali Məhkəməsinin qərarı ilə S.Sadıxzadəyə bəraət verilmişdir.

**11. Zeynallı Hənəfi Baba oğlu - folklorçu, mətnşünas, ədəbiyyatşünas.**

1896-cı ildə Bakı şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin 12 oktyabr 1937-ci ildə keçirilən hökmü ilə güllələnməyə məhkum edilmişdir. 30 mart 1957-ci ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə H.Zeynallıya bəraət verilmişdir.

**12. Ələkbərli Məmməd Kazım Ələkbər oğlu - tənqidçi.**
1905-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin səyyar sessiyasının Hərbi Kollegiyasının 12 oktyabr 1937-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 7 aprel 1956-cı il tarixli qərarı ilə M.Ələkbərliyə bəraət verilmişdir.

**13. Vəzirov (Çəmənzəminli) Yusif Baba oğlu - yazıçı.**
1887-ci ildə Şuşa şəhərində anadan olmuşdur. SSRİ DİXK-in nəzdində olan Xüsusi Müşavirənin 11 iyun 1940-cı il tarixli qərarına əsasən cəzasını islah-əmək düşərgəsində çəkməklə, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin 28 fevral 1956-cı il tarixli qərarı ilə Y.Vəzirova bəraət verilmişdir.

**14. Nəzərli Hacıbaba Ələsgər oğlu - nasir.**
1895-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin 8 yanvar 1938-ci ildə keçirilən səyyar Hərbi Kollegiyasının hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 6 oktyabr 1956-cı il tarixli qərarı ilə H.Nəzərliyə bəraət verilmişdir.

**15. Şahbazov Şahbazi Tağı (Simurq) Abbas oğlu - yazıçı, publisist.**

1892-ci (bəzi sənədlərdə 1889-cu il yazılmışdır) ildə Bakı şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyasının 2 yanvar 1938-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 28 iyul 1956-cı il tarixli qərarı ilə Ş.T.Şahbazova bəraət verilmişdir.

**16. Əfəndiyev Sultan Məcid - maarifçi, publisist.**
1886-cı ildə anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin keçirilən Hərbi Kollegiyasının 21 aprel 1938-ci il tarixli hökmü ilə güllələnmişdir. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 10 dekabr 1955-ci il tarixli qərarı ilə S.Əfəndiyevə bəraət verilmişdir.

**17. Talıblı Böyükağa Mirqasım oğlu - yazıçı, publisist.**
1897-ci ildə Salyan şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 12 oktyabr 1937-ci il tarixli hökmü ilə güllələnmişdir. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 25 iyun 1957-ci il tarixli qərarı ilə B.Talıblıya bəraət verilmişdir.

**18. Həbib Cəbiyev - siyasi dövlət xadimi, publisist.**
1899-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1922-1923-cü illərdə Moskvada "Qızıl Şərq" jurnalının, 1923-1930-cu illərdə "Kommunist" qəzetinin baş redaktoru olmuşdur. Repressiyaya məruz qalaraq 21 aprel 1938-ci il tarixində güllələnmişdir. Stalinin ölümündən sonra bəraət almışdır.

**19. Əhmədov Əmin Abid Mütəllib oğlu - tənqidçi, şair.**
1898-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan SSRİ DİXK üçlüyünün 19 oktyabr 1938-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. Zaqafqaziya Hərbi

Tribunalı hərbi dairəsinin 21 dekabr 1962-ci il tarixli qərarı ilə Ə.Əhmədova bəraət verilmişdir.

**20. Qənizadə Sultan Məcid - nasir, tərcüməçi.**
1868-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Azərbaycan SSRİ DİXK üçlüyünün 14 mart 1938-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 29 oktyabr 1956-cı il tarixli qərarı ilə S.Qənizadəyə bəraət verilmişdir.

**21. Çobanzadə Bəkir Vahab oğlu - dilçi, şair.**
1893-cü ildə Krım quberniyasının Simferopol qəzasının Qarasubazar kəndində anadan olmuşdur. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının səyyar sessiyasının 12 oktyabr 1937-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 6 iyun 1957-ci il tarixli qərarı ilə B.Çobanzadəyə bəraət verilmişdir.

**22. Qubaydullin Qazis (Əziz) Salihoviç - tarixçi.**
1887-ci ildə anadan olmuşdur. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 12 oktyabr 1937-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə Kollegiyasının 16 mart 1957-ci il tarixli qərarı ilə Q.Qubaydullinə bəraət verilmişdir.

**23. Axundov Ruhulla Əli oğlu - ədəbiyyatşünas .**
1 yanvar 1887-ci ildə Bakı şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının RSFSR CM-nin 58-5, 58-7, 58-8 və 58-11-ci maddələrinə əsasən güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi

Kollegiyasının 10 dekabr 1955-ci il tarixli qərarı ilə R.Axundova bəraət verilmişdir.

**24. Qasımov Pənah Ələkbər oğlu - maarifçi, publisist.**
1881-ci ildə anadan olmuşdur. 29 aprel 1939-cu ildə Bakı DİXK-in 1 saylı həbsxanasında vəfat etmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 9 noyabr 1955-ci il tarixli qərarı ilə P.Qasımova bəraət verilmişdir.

**25. Mustafa Quliyev - ədəbiyyatşünas, tənqidçi və publisist.**
1893-cü il mayın 24-də Şəki şəhərində anadan olmuşdur. "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət" jurnallarının məsul redaktoru vəzifəsində işləmişdir. 1938-ci ildə cəza tədbirləri dövründə həbs edilib ölümə məhkum olunmuşdur.

**26. Rəsulzadə Ağahüseyn - Yazıçılar İttifaqının məsul katibi.**
1884-cü ildə Bakının Balaxanı kəndində anadan olub. SSRİ XDİK yanında Xüsusi Müşavirənin 5 iyun 1939-cu il tarixli qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə, 5 il müddətinə azadlıqdan məhrum edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 15 fevral 1956-cı il tarixli qərarı ilə A.Rəsulzadəyə bəraət verilmişdir.

**27. Musaxanlı Atababa Daşdəmir oğlu - tənqidçi, ədəbiyyatşünas.**
1905-ci ilin mart ayının 25-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan SSRİ DİXK üçlüyünün 31 dekabr

1937-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. Hökm 8 fevral 1938-ci ildə icra edilmişdir. SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə Kollegiyasının 4 iyul 1956-cı il tarixli qərarı ilə A.D.Musaxanlıya bəraət verilmişdir.

**28. İsmayıl Katib - şair.**
1898-ci ildə Qazax qəzasının Qıraqkəsəmən kəndində anadan olmuşdur. Ağdaş Qəza partiya komitəsinin birinci katibi, Azərbaycan Dövlət Nəşriyyatında direktor vəzifələrində çalışmışdır. 1938-ci ildə güllələnmişdir.

**29. Eminbəyli İbrahim - tənqidçi.**
1894-cü ildə anadan olmuşdur. SSRİ Ali Məhkəməsi 12 oktyabr 1937-ci ildə keçirilən səyyar Hərbi Kollegiyasının hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 10 dekabr 1955-ci il tarixli qərarı ilə İ.Eminbəyliyə bəraət verilmişdir.

**30. Salamzadə Əbdüləziz (1907-1937) - tənqidçi, tarixçi.**
1907-ci ildə Nuxada anadan olmuşdur. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 11 oktyabr 1937-ci ildə keçirilən səyyar Hərbi Kollegiyasının hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 28 noyabr 1956-cı il tarixli qərarı ilə Ə.Salamzadəyə bəraət verilmişdir.

**31. Hüseynov Mikayıl Namaz oğlu - tənqidçi.**
1900-cü ildə anadan olmuşdur. AK(b)P-nın təbliğat şöbəsinin müdiri vəzifəsində işləmişdir (1930-cu illər). SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 19 oktyabr 1937-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali

Məhkəməsinin Hərbi Kollegiyasının 1 sentyabr 1956-cı il tarixli qərarı ilə M.N.Hüseynova bəraət verilmişdir. 32. Ağaməmməd Aslanov - publisist.

**33. Nemanzadə Ömər Faiq - yazıçı, publisist.**
1871-ci ildə Gürcüstanın Axaltsıx rayonu Azqur kəndində anadan olmuşdur.
1937-ci ilin 16 iyulunda Tbilisi şəhərində, Axaltsıx rayon prokuroru Odabaşyanın sanksiyası ilə o, növbəti dəfə həbs edilmiş və oktyabr ayının 19-da üçlüyün əmri ilə güllələnmişdir.

**34. Trinç Əhməd Bedi oğlu - publisist.**
1893-cü ildə anadan olmuşdur. Sovet hakimiyyətinə qarşı təbliğat aparmaqda ittiham olunaraq həbs edilmişdir. 8 iyul 1937-ci ildə Ə.Trinç saxlanıldığı kamerada intihar edərək, özünü asmışdır. 1930-cu illərdə "Azərnəşr"də direktor işləmişdir.

**35. Samçızadə Əli Razi Yəhya oğlu - şair, publisist.**
1880-ci ildə Gəncə şəhərində anadan olmuşdur. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyasının 7 yanvar 1938-ci il tarixli hökmü ilə güllələnmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 13 may 1958-ci il tarixli qərarı ilə Ə.Y.Samçızadəyə bəraət verilmişdir.

**36. Şamilov Seyfulla Əli oğlu - nasir, publisist.**
1902-ci ildə Qazax rayonunun Tapılı kəndində anadan olmuşdur. SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 9 iyun 1939-cu il tarixli qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə, 5 il müddətinə azadlıqdan məhrum edilmişdir. 11 fevral 1943-cü ildə azadlığa buraxılmışdır.

SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 9 may 1955-ci il tarixli qərarı ilə Ə.Şamilova bəraət verilmişdir. 1974-cü il dekabrın 25-də S.Şamilov vəfat etmişdir.

**37. İbrahimov Əlisəttar (1896-1937) - şair-publisist**.
1896-cı ildə anadan olmuşdur. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 8 yanvar 1938-ci il tarixli hökmü ilə güllələnməyə məhkum edilmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 11 aprel 1956-cı il tarixli qərarı ilə Ə.İbrahimova bəraət verilmişdir.

**38. Qədirbəyova Gülarə İbrahim Xəlil qızı - publisist, ictimai xadim.**
1905-ci ildə anadan olmuşdur. SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 9 iyun 1939-cu il tarixli qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə, 5 il müddətinə azadlıqdan məhrum edilmiş, Sibirə sürgün edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 30 oktyabr 1957-ci il tarixli qərarı ilə G.İ.Qədirbəyovaya bəraət verilmişdir.

**39. Sadıxova (Rəsulzadə) Ümmülgülsüm Əbdüləziz qızı - şairə, nasir.**
1900-cü ildə Bakı şəhərində anadan olmuşdur. SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 9 aprel 1938-ci il tarixli qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Azərbaycan Respublikası Prokurorluğunun 14 mart 1990-cı il tarixli rəyinə əsasən Ü.Ə.Sadıxovaya bəraət verilmişdir.

**40. Məmmədov Cabbar Abbas oğlu.**
1882-ci ildə İrəvanda anadan olmuşdur. Xalq təsərrüfatı İnstitutunda Dilçilik kafedrasında müəllim işləmişdir (dilçi, pantürkist). SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 2 yanvar 1938-ci ildə keçirilən səyyar sessiyasının hökmü ilə güllələnməyə məhkum edilmişdir. Hökm 3 yanvar 1938-ci ildə yerinə yetirilmişdir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 25 iyul 1957-ci il tarixli qərarı ilə C.A.Məmmədova bəraət verilmişdir.

**41. Cəfərov Əkrəm Səftər oğlu - dilçi.**
1905-ci ildə İsmayıllı rayonunun Lahıc kəndində anadan olmuşdur. Filologiya elmləri namizədi, ADU Dilçilik kafedrasının dosenti işləmişdir. SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 5 sentyabr 1942-ci il tarixli qərarı ilə islah-əmək düşərgəsində saxlanılmaqla, 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğun 16 yanvar 1989-cu il tarixli rəyinə əsasən Ə.S.Cəfərova bəraət verilmişdir.

**42. Həsənov İdris Məşədi Zaman oğlu - dilçi.**
1897-ci ildə İrəvanda anadan olmuşdur. SSRİ DİXK-in yanında Xüsusi Müşavirənin 9 aprel 1939-cu il tarixli qərarı ilə 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. 1949-cu il dekabrın 21-də yenidən həbs olunmuş, SSRİ DTN yanında Xüsusi Müşavirənin 8 aprel 1950-ci il tarixli qərarı ilə Krasnoyarsk vilayətinə sürgün edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə

kollegiyasının 27 sentyabr 1957-ci il tarixi qərarı ilə İ.M.Həsənova bəraət verilmişdir.

**43. Bağırov Qulam Kərim oğlu - dilçi.**
1904-cü ildə İranın Mərənd rayonunun Dizə kəndində anadan olmuşdur.
21 iyul 1939-cu ildə 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəmə kollegiyasının 18 aprel 1956-cı il tarixli qərarı ilə Q.K.Bağırova bəraət verilmişdir.

**44. Dəmirçizadə Əbdüləzəl Məmməd oğlu.**
1909-cu ildə Nuxa şəhərində anadan olmuşdur. 9 mart 1937-ci il tarixində Dəmirçizadə həbs edilmişdir. İstintaq zamanı əməllərində cinayət tərkibi olmadığından Ə.Dəmirçizadə 8 iyul 1937-ci ildə azadlığa buraxılmışdır. Professor Ə. Dəmirçizadənin 20-dən çox kitabı, 200-dən artıq elmi və elmi- metodik məqaləsi çap olunmuşdur.

**45. Ələkbərov Ağadadaş ("Dərviş" ləqəbli) Hənəfi oğlu.**
1867-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanın mərsiyəxan şairlərindən biri olub (dini təbliğ edən əsərlər yazdığına görə 16 dekabr 1937-ci il tarixində həbs edilib). Azərbaycan SSRİ DİXK üçlüyünün 31 dekabr 1937-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. 16 yanvar 1938-ci ildə hökm icra olunmuşdur. Azərbaycan SSRİ Ali Məhkəmə kollegiyasının 27 oktyabr 1958-ci il tarixli qərarı ilə A.H.Ələkbərova bəraət verilmişdir.

**46. İsmayılzadə Cəfər Balaəmi oğlu - şair, ədəbiyyatşünas, tərcüməçi.**

1905-ci ildə Bakı şəhərinin Mərdəkan kəndində anadan olmuşdur. 22 iyun 1935-ci ildə Azərbaycan SSR CM-nin 73-cü maddəsinə əsasən (sovet hakimiyyətinə qarşı təbliğat) 3 il müddətinə azadlıqdan məhrum edilmişdir.SSRİ DİXK yanında Xüsusi Müşavirənin 21 avqust 1943-cü il tarixli qərarı ilə Qazaxıstan SSR-nin Şimali Qazaxıstan vilayətinə 5 il müddətinə sürgün edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının səyyar sessiyasının 7 iyul 1956-cı il tarixli qərarı ilə C.İsmayılzadəyə bəraət verilmişdir. 1985-ci ildə SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur.

**47. Qasımov Ənvər Yusif oğlu, tərcüməçi, publisist.**
1914-cü ildə Yevlax şəhərində anadan olmuşdur. "Kommunist", "Kirovabad bolşeviki" qəzetləri redaksiyasında, 1937-ci ildən isə Azərbaycan SSR XKS-də tərcüməçi işləmişdir. SSRİ DİXK yanında Xüsusi Müşavirənin 25 sentyabr 1943-cü il tarixli qərarı ilə Qazaxıstan SSR-nin Şimali Qazaxıstan vilayətinə 5 il müddətinə sürgün edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 20 yanvar 1955-ci il tarixli qərarı ilə Ə.Qasımova bəraət verilmişdir.

**48. Nəcəfov Rzaqulu Ələkbər oğlu - ədəbiyyat işçisi, tərcüməçi, müəllim**.
1885-ci ildə Naxçıvanda anadan olmuşdur. Azərbaycan SSR DİXK üçlüyünün 21 oktyabr 1937-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. Hökm 29 noyabr 1937-ci ildə yerinə yetirilmişdir. Azərbaycan SSRİ Ali

Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının səyyar sessiyasının 18 avqust 1956-cı il tarixli qərarı ilə N.Rəcəbova bəraət verilmişdir.

**49. Axundov Mirzə Məhəmməd - "Molla Nəsrəddin"çi, şair, alim, xalq müəllimi.**
1875-ci ildə Gəncədə anadan olmuşdur. Azərbaycan Fövqəladə Komissiyasının 17 dekabr 1920-ci ildə keçirilən iclasında alınmış qərara əsasən, müsavat hökuməti və partiyasına qulluq etdiyinə görə günahlandırılmış, cəzasını ağır işlər görülən düşərgədə çəkməklə 1 il müddətinə azadlıqdan məhrum edilmişdir. 1923-cü ildə vəfat etmişdir.

**50. Mir Cəfərov Mir Məhəmməd Kərim Mir Cəfər oğlu - tərcüməçi, yazıçı, jurnalist, Bakı qazısı.**
1872-ci ildə Bakının Mərdəkan kəndində anadan olmuşdur. Azərbaycan SSR DİXK üçlüyünün 2 mart 1938-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 15 iyul 1960-cı il tarixli qərarı ilə M.M.Mir Cəfərova bəraət verilmişdir.

**51. Abdullayev Zülfüqar Həsən oğlu - filoloq, "Azərnəşr"də tərcüməçi.**
1898-ci ildə Şuşada anadan olub. Azərbaycan SSR DİN qoşunları Hərbi Tribunalının 22 sentyabr 1942-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. Azərbaycan SSRİ Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 12 sentyabr 1966-cı il tarixli qərarı ilə Z.H.Abdullayevə bəraət verilmişdir.

**52. Qafarov Hüseyn Cəfər oğlu - Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, filoloq.**
1908-ci ildə Bakıda anadan olmuşdur. Azərbaycan SSR DİN qoşunları Hərbi Tribunalının 22 sentyabr 1942-ci il tarixli qərarı ilə 10 il müddətinə azadlıqdan məhrum edilmişdir.

**53. Muradov Şirməmməd Əhməd oğlu - Nizami adına Ədəbiyyat İnstitutunda lüğətlər şöbəsinin müdiri.**
1898-ci ildə Bakıda anadan olmuşdur. Azərbaycan SSR DİN qoşunları Hərbi Tribunalının 22 sentyabr 1942-ci il tarixli qərarı ilə güllələnməyə məhkum edilmişdir. Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının 12 sentyabr 1966-cı il tarixli qərarı ilə Ş.Ə.Muradova bəraət verilmişdir.

**54. İbrahimbəy Musabəyov - maarifçi, nasir.**
1880-ci ildə Qəbələ (Qutqaşen) rayonunda anadan olmuş, 1937-ci ildə repressiyaya məruz qalmış, 1942-ci ildə Karaqandada həlak olmuşdur
**55. Teymur bəy Bayraməlibəyov - folklorşünas, tarixçi.**
1862-ci ildə Masallıda anadan olmuş, 1937-ci ildə repressiyaya məruz qalmışdır. Folklorşünas və tarixçi kimi bir çox əsərlərin müəllifidir.

**56. Əbasəlt Rizai (1902-1938) - şair-tərcüməçi.**
1938-ci ildə güllələnmişdir.

**57. Yusif Hacızadə (1909-1973) - şair, tərcüməçi.**
1937-ci ildə Sibirə sürgün edilmişdir.

*Kitabxanaçının çıxışından sonra iştirakçılar öz çıxışlarına keçid alırlar.*

30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü ilə əlaqadar olaraq kitabxanada keçirilən tədbirlərdən biri də *"Ölümə qarşı"* adlı **şeir müsabiqəsidir.** Tədbir oxuculara həmin günün mahiyyətini daha da yaxından tanıtmaq üçün nəzərdə tutulur. Tədbirə şairlər, tarixçilər, tənqidçi və ədəbiyyat müəllimləri dəvət olunur. Məktəblilərə 30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü ilə bağlı həmin illərdə repressiyaya məruz qalmış şairlərin şeirləri təqdim edilir və məktəblilər şeirlərlə tanış olurlar. Müəyyən olunmuş vaxtda şagirdlər kitabxanaya gəlirlər. Tədbir zamanı şeir müsabiqəsini açıq elan edən kitabxanaçı 30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Günü haqqında qısa məlumat verir. Kitabxanaçının qısa çıxışından sonra iştirakçılar öz şeirlərini demək üçün səhnəyə yaxınlaşırlar.

*I iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə şeiri deməyə başlayır.*

**Hüseyn Cavid. Qız məktəbində**

— Quzum, yavrum! Adın nədir?
— Gülbahar.
— Pəki, sənin anan, baban varmı?
— Var.
— Nasıl, zənginmidir baban?
— Əvət, zəngin, bəyzadə...
— Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma...
— Var əfəndim, var… lakin

Müəllimən hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
— Çox doğru söz… Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylərmisən?
— Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
— Sonra kimlər?
— Sonra onun göndərdiyi elçilər.
— Başqa sevdiklərin nasıl, yoxmu?
— Var...
— Kimdir onlar?
Anam, babam, müəllimən, bir də bütün insanlar…

*II iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə şeiri deməyə başlayır.*

**Əhməd Cavad. "Azərbaycan Dövlət Himni"**

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər!
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!

Şanlı Vətən, şanlı Vətən!
Azərbaycan, Azərbaycan!

*III iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə şeiri deməyə başlayır.*

**M.Müşfiq. Ana**

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Ana, ana!... Bu kəlmənin vurğunuyam əzəldən,
Onu gözəl anlatamaz düşündüyüm satırlar.
Ana olmaz bizə hər bir “yavrum” deyən gözəldən,
Çünki onun xilqətində ayrıca bir füsun var.

Başqa aləm yaşamadım böylə gözəl biçimdə,
Onu kimsə gözəlliyin cilvəsində yaratmış;
Ana, ana... çiçəkli bir fidandır ki, içimdə
Ta əzəldən kök salaraq, ürəyimdə boy atmış.

O fidanı bəzi faqıt istiyorum çəkərək,
Qoparayım ürəyimdən, fəqət onda varlığım
Sızıldarkən, sanki bir səs qopub incə və titrək
Bir lisanla söylüyor ki: - Mənə dəymə, yazığım!

Çünki səni mən bəslədim, mən böyütdüm, oxşadım,
Söylədiyin sözlər ki var beşiyinin üstündə
Oxuduğum türkülərin kölgəsidir, övladım!
Mənə məxsus vərəqlər var hər kitabda, hər dində.

Nə doğru söz yazıqlar ki, görməmişəm onu mən,
Diyorlar ki, Müşfiq, xəstə bir tifildin, ananı
Baban kimi soyuq əllər qucağına çəkərkən,
Yalnız acı fəğanların titrədirdi hər yanı.

İndi mənə hər kəs: - Anan, baban varmı? - söyləsə,
Diyorum ki, - qapılmadan bir xülyaya, bir hissə-
Olan olmuş, keçən keçmiş, indi məni yaşadan
Bir müqəddəs, bir səmimi əməlim var, tapdığım.

İnandığım bir qiblə var, o da hər gün, hər zaman
Yorulmayan qollarımla, düşünərək yapdığım
Bir aləmdir, bir aləm ki, səmaları qıpqızıl,
Yüksəkləri, alçaqları, fəzaları qıpqızıl!

*IV iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə şeiri deməyə başlayır.*

**Əmin Abid Gültəkin - Can Azərbaycan**

Sən bizimsən, bizimsən durduqca bədəndə can,
Evet gönüllər coşdu bir sevincin gücüylə
Istiqlal sevi nciylə, istiqlal sevinciylə...
İstiqlal, o yaşayan millətin qəlbində can,
İstiqlal, o səadət, həyat, zəfər, şərəf, şan.
İstiqlal, o sönməyən müəbbəd bir məşalə
Könüllərdə tutuşur, gözlərdə sönsə belə!
İstiqlal, o vətənın göğsünden yüksələn ay.
İstiqlal, o sümüktən, qandan yapılmış saray.
İstiqlal, o millətin parçalanan bağrından
Gəlinlərin, qızların, axan göz yaşlarından
Doğmuş pek mübarək, pek müqəddəs bir "İlah"dır,
Hansı bir erkek onu düşmənlərə qaptırır?
Anaların saçından ördüğü bir bayrağı

Hansi erkek çıxıb edəcək baş aşağı?!
Sən bizimsən, bizimsən durduqca bədəndə can,
Yaşa - yaşa çox yaşa, ey şanlı Azərbaycan!

*V iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə şeiri deməyə başlayır.*

Hümmət Əlizadə. Bayatılar

Əzizim gül üşüdü,
Şeh düşdü gül üşüdü.
Güldün, ağlım apardın,
Bu necə gülüşüdü?!

Başı bəlgəli dağlar,
Dibi kölgəli dağlar.
Gözüm yollarda qaldı,
Haçan el gəli, dağlar?!

*Tədbirin sonunda iştirakçılar münsiflər tərəfindən mükafatlandırılır.*

30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Gününü gənc nəslə tanıtmaq, milli dəyərlərimizi, tariximizi onlara daha əyani şəkildə göstərmək üçün kitabxanada bir sıra tədbirlər görülməkdədir. Bu tədbirlərdən biri də **oxucularla söhbət** adlanır. Tədbir *“Repressiyaya məruz qalan Azərbaycan qadınları”* başlığı altındadır və repressiya tufanınına tuş gəlmiş qadınların mübarizə dolu acı həyatlarından bəhs edir. Bunun üçün ilk olaraq kitabxanada sözü gedən qadınların həyat və yaradıcılığından bəhs edən kitab və dövri mətbuat nümunələrindən və görkəmli şəxsiyyətlərin repressiya qurbaqnları haqqında söylədikləri fikir və sitatlardan ibarət sərgi təşkil olunur. Tədbir oxucularla sərgi ətrafında söhbət şəklində keçirilir. Oxucular əsasən ali məktəb tələbələri və yuxarı sinif şagirdləri

nümayəndələridir. Kitabxanaçı gələn qonaqları və iştirakçıları salamladıqdan sonra 30 Oktyabr – Ümumdünya Siyasi Repressiya Qurbanlarının Xatirə Gününü barədə məlumat verir.

**Kitabxanaçı:** 1920-1950-ci illərdə sovet dövlətinin apardığı repressiya siyasəti nəticəsində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmişdir. Bununla da Azərbaycan cəmiyyətinin ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi məhv edilmişdir. Bu bir faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş Sovet respublikaları içərisində birinci yerdə dururdu.

1920-ci illərdən başlayaraq 30 ilə yaxın davam edən repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı-hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi və onların ailə üzvləri Sibirə, Orta Asiyaya və Qazaxıstana sürgün olunmuşdur. Güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arasında min bir işgəncə ilə qətlə yetirilənlərin arasında qadınların sayı az olmayıb. Bu qadınların böyük əksəriyyəti Sovet rejimi, kommunist ideologiyası və mövcud quruluşa qarşı real və ciddi təhlükə yarada biləcək güc və zəka sahibləri kimi qəbul edilirdilər.

*Kitabxanaçının çıxışından sonra iştirakçılar repressiya qurbanları olmuş qadınlardan söhbər açır.*

***I İştirakçı: Mədinə xanım Qiyasbəyli ( Vəkilova) haqqında məlumata keçid alır.***

Mədinə Qiyasbəyli (1889-1938) — Azərbaycan maarif xadimi, pedaqoq, məktəbdar, jurnalist, tərcüməçi.

Mədinə Qiyasbəyli Qazax qəzasının Salahlı kəndində maarifpərvər Mehdi ağa Vəkilovun ailəsində doğulmuş, ilk dini-dünyəvi təhsilini valideynlərindən, daha sonra Tiflisdə "Müqəddəs Nina" pedaqoji məktəbində almışdır. Daha sonra birillik pedaqoji kursu bitirmiş, müəllimlik şəhadətnaməsi almışdır (1905). Təhsilini başa vurduqdan sonra 17 yaşlarında ikən doğma Salahlı kəndində – öz yaşadığı evdə birsinifli ilk kənd qız məktəbini açmışdır (1906), orada dərs demişdir. Ömrü boyu maarif və mədəniyyətin inkişafına çalışmışdır. Qazax və Gədəbəy bölgələrində məktəb təşkil etmiş, Qazax qəzasında xalq məktəblərinin inspektoru olmuşdur (1918). Bakıya köçəndən sonra burada yaşadığı mənzildə kurslar təşkil etmişdir. Sonra azərbaycanlı qızlar üçün Darülmüəllimat-qız məktəbləri üçün ibtidai sinif müəllimləri hazırlayan ilk pedaqoji təhsil ocağını yaratmışdır. Sonra Bakıda orta məktəblərdə, Kənd Təsərrüfatı İnstitutunda müəllimlik etmişdir. "Şərq qadını" jurnalının yaradıcılarından biri kimi savadsızlığa qarşı mübarizəyə qoşulmuşdur. Tərcüməçilik fəaliyyəti ilə ardıcıl məşğul olmuşdur. Səməd Vurğun A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanının poetik tərcüməsi üzərində çalışarkən onun tövsiyələrinə qayğı ilə yanaşmışdır. Rus oxucuları onun tərcüməsi ilə M.S.Ordubadinin "Dumanlı Təbriz", Əbülhəsənin "Yoxuşlar" romanı ilə tanış olmuşlar.
1920-1933-cü illərdə Bakı-Darülmüəllimatının müdiri, Bakı ali məktəblərinin rus dili müəllimi olmuş, milli pedaqoji kadrlar hazırlamışdır. "Şərq qadını" məcmuəsinin təsisçilərindən biri və müəllifi idi. M.S. Ordubadinin və başqa ədiblərin bəzi əsərlərini Azərbaycan dilindən ruscaya tərcümə etmişdir.

Mədinə xanım Qiyasbəyli 1936-cı ilin dekabrında həbs olunmuş, iki ildən sonra güllələnmişdir. Ölümündən iki il sonra bəraət almışdır.
Mədinə xanım Qiyasbəyli həbs olunarkən 1930-cu ilin dekabr ayının 8-də 1747 №-li orderə əsasən həbs edilib. 8 sentyabr 1937-ci ilə kimi 12 dəfə dindirilmiş və sentyabrın 23-də tərtib olunmuş ittihamnamədə aşağıdakılar yazılmışdır: "Azərbaycanda Sovet hakimiyyəti hələ bərqərar olmamışdan qabaq Mədinə xanım Qiyasbəyli Musavat partiyasının fəal üzvü olub, Məhəmməd Əmin Rəsulzadə və başqa musavatçılarla sıx əlaqə saxlamışdır. Azərbaycanda Sovet Hakimiyyəti qurulandan sonra Qiyasbəyli yenə də musavatçı mövqeyində qalıb və qeyri-feodal musavat mərkəzi ilə əlaqə saxlamışdır. Həmin təşkilatın 1927-ci ildə ləğv olunmasından sonra Mədinə xanım Qiyasbəyli öz ətrafına əksinqilabi ruhda gəncləri yığmağa başlamışdır. 1930–33-cü illərdə Qiyasbəyli İranda olan musavatçılarla gizli əlaqə saxlamışdır. Həbs olunana kimi Qiyasbəyli əksinqilabi-millətçi təşkilatın üzvləri R.Axundov, B.Çobanzadə ilə əlaqə saxlamış və Sovet Hökuməti ilə mübarizə mövqeyində qalıb. Göstərilənlərə əsasən Qiyasbəyli Mədinə xanım Mehdi qızı Azərbaycan CM 72 və 73-cü maddələri ilə təqsirləndirilir və 13506 №-li İstintaq işi bitmiş hesab edilsin. Qiyasbəyli Mədinə xanımın işi Azərbaycan XDİK nəzdində olan Xüsusi Üçlüyə verilsin."
Azərbaycan SSR XDİK nəzdindəki Üçlüyün 1937-ci il sentyabrın 26-da keçirilən iclasın protokolundan çıxarış. Eşidildi: Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri ilə təqsirkar sayılan Qiyasbəyli Mədinə Mehdi qızının 13506 №-li cinayət işi. Qərara alındı: Qiyasbəyli Mədinə xanım Mehdi qızı əmlakı müsadirə edilsin, güllələnsin. 13506 №-li cinayət işinin 202-ci vərəqəsindəki aktdan çıxarış: "Azərbaycan SSR XDİK Xüsusi Üçlüyün 1937-ci il 26 sentyabr tarixli, 45

yaşında olan Qiyasbəyli Mədinə xanım Mehdi qızının güllələnməsi haqda qərarı 1937-ci il sentyabrın 28-də gecə saat 1.25 dəqiqə yerinə yetirilmişdir. Baş leytenat Suxanov". Mədinə xanım Qiyasbəyli haqqında çıxarılmış ədalətsiz hökm 24 avqust 1956-cı ildə Azərbaycan Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası tərəfindən ləğv edilmiş və ona ölümündən iki il sonra bəraət verilmişdir.

***II İştirakçı: 37-nin 37 yaşlı qurbanı: İlk repressiya olunan qadın Umgülsüm Sadıqzadə haqqında məlumata keçid alır.***

1937-ci ilin qurbanlarından olan Umgülsüm Sadıqzadə 1900-cü ildə ruhani ailəsində doğulmuşdu. Bakının Novxanı və ətraf kəndlərində məşhur olan Əbdüləziz kişinin üçüncü qızı hələ uşaq yaşlarından ədəbiyyata, şeirə, sənətə meyil göstərirdi. Get-gedə genişlənən bilikləri və istedadı ona heca və əruz vəznlərində gözəl şeirlər yazdırırdı. Əlbəttə ki, onun bu istedadı tezliklə diqqət çəkdi. O, 1914-cü ildən etibarən artıq – “Açıq söz”, “Birlik”, “İqbal”, “Yeni iqbal”, “İstiqlal”, “Azərbaycan”, “Ədəbiyyat”, “Şərq qadını” kimi mətbu orqanlarda çıxış etməyə başladı. Milli ruhlu şeirləri ilə tez bir zamanda ədəbi aləmdə tanınmağa başlayan gənc şairənin istedadı və cəsarəti o vaxt mətbuatda qadın azadlıqları, hüquqları uğrunda mübarizəyə həsr olunmuş məqalələrlə çıxış edən Seyid Hüseynin də diqqətindən yan keçmədi. 1920-ci ildə ailə quran Seyid Hüseyn və Umgülsümün dörd övladı dünyaya gəlir: Cığatay, Toğrul, Oqtay və Qumral. Gənc ailə artıq əsməkdə olan repressiya rüzgarını hiss edirdi. Umgülsümün həyat yoldaşı Seyid Hüseyni 1937-ci il iyulun 15-də Şüvəlandakı bağında həbs edirlər. Oğlu Toğrulun - “Ata, nə vaxt qayıdacaqsan” sualı əbədi olaraq cavabsız qalır. 1938-ci ilin yanvar ayında Seyid Hüseyn güllələnir. 1937-ci ilin noyabr ayında onu “xalq düşməni”nin arvadı kimi həbs edib Bayıl həbsxanasına salırlar. Beləcə, 37-nin 37 yaşlı

qurbanı olur Umgülsüm Sadıqzadə. Həm də ilk repressiya olunan Azərbaycan qadını. Ona səkkiz il iş kəsərək 1938-ci ildə Mordova Muxtar Respublikasının Yavas qəsəbəsindəki Temlaq əmək islah düşərgəsinə göndərirlər. O, düşərgədə olduğu müddətdə ağır sürgün günlərini yazmaqla ovunurdu. “Qala xatirələrim” beləcə yaranır. O, Mikayıl Müşfiqin sevimli Dilbəri ilə eyni düşərgədə olub, onun vəziyyətini acı ilə qələmə alıb. Umgülsüm xanım 1943-cü ildə SSRİ XDİK-nın Xüsusi Müşavirəsinə ərizə ilə müraciət edərək, azadlığa buraxılmasını xahiş edir. Onun azad olunmasına yalnız 1945-ci ilin aprel ayında qərar verilir. Artıq sürgün günlərinin geridə qaldığına, uşaqlarına və evinə qovuşduğuna yenicə sevinmiş bu əzabkeş qadına iyirmi gün sonra Bakıda qalmaq yasaqlanır. O, Vətənində də sürgün olunur. Bakıdan Şamaxıya köçməli olur. Burada da uzun müddət yaşaya bilmir və üç ay sonra qızı Qumralın qolları arasında gözlərini əbədi olaraq yumur.

***III İştirakçı anasının dəfnində həbs edilən azərbaycanlı jurnalist qadın Gülarə Qədirbəyova haqqında məlumata keçid alır.***

Gülarə Qədirbəyova 1903-cü ildə Nuxa qəzasının Baş Göynük kəndində molla ailəsində anadan olmuşdur. 1920-ci ildə Şəkidə pedaqoji kursu bitirib doğma kəndində müəllimlik etmişdir. Tezliklə ictimai-siyasi fəaliyyətə cəlb olunmuş, 20 yaşında Qəza qadınlar şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmiş, Şəki, Şamxor (indiki Şəmkir), Quba, Bakı rayonlarında Qadınlar şöbəsinə rəhbərlik etmiş, 1927-ci ildə Azərbaycan MİK Qadınlar şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmiş, "Şərq qadını" jurnalının redaktoru olmuş, 1930–1937-ci illərdə isə Əli Bayramov adına qadınlar klubunun müdiri vəzifəsində işləmişdir. "Şərq qadını" jurnalı ilk fəaliyyətə başladığı gündən onun səhifələrində çıxış edən

ilk müxbir qız olmuşdur. O Vətəninin, millətinin tərəqqisi naminə qətiyyətlə mübarizə aparmış, mətbuat səhifələrindəki alovlu publisist yazıları ilə Azərbaycan qadınlarının maariflənməsinə böyük xidmətlər göstərmişdir.

1936-cı ildə Əli Bayramov adına qadınlar klubunun 15 illiyi ilə əlaqədar Gülarə Qədirbəyovanın redaktəsi altında yazılmış "Bir sarayın tarixi" adlı kitab millətçilik ruhunda yazılmış əsər kimi ciddi tənqid edilmiş, Hüseyn Cavid, Əhməd Cavad, Seyid Hüseyn kimi müsavatçı ziyalılarla dostluq əlaqələrinin olmasına görə onu antisovet fəaliyyətdə iştirak edən, əksinqilabi təşkilatın üzvü kimi təqib etməyə başlamışdılar. Azərbaycan SSR Kommunal Təsərrüfat Komissarı H.Sultanovun dindirilməsi zamanı təzyiq altında alınan böhtançı ifadələrdə Gülarə Qədirbəyovanın da əks-inqilabi təşkilatın üzvü olması, 1937-ci ilin oktyabrında güllələnmiş İbrahim Tağıyev tərəfindən əks-inqilabi təşkilata cəlb edilməsi göstərilmişdir.

1938-ci il iyulun 23-də Gülarə Qədirbəyovanın həbsi barədə L-956 saylı order verilmiş, üç gündən sonra isə o, İsmayıllı rayonunun Basqal kəndində anasının dəfn mərasimində həbs olunmuşdur. O, 4 dəfə – 1938-ci il avqustun 19-da, 1938-ci il oktyabrın 31-də, 1938-ci il noyabrın 15-də və 1938-ci il noyabrın 20-də istintaq dindirilməsinə cəlb olunmuş, hər dəfə də günahsız olduğunu qeyd etmişdir. 1939-cu il fevralın 1-də Azərbaycan SSR Prokurorunun müavini Selivestrov və martın 28-də XDİK yanında Xüsusi Müşavirə Katibliyinin müvəkkili, leytenant Xolodirov, Xüsusi Müşavirə Katibliyinin I müavini leytenant Borovkov qərara razılıq vermişlər. Beləliklə, Xüsusi Müşavirənin 1939-cu il 9 iyul tarixli (protokol №14) qərarı ilə Gülarə Qədirbəyova 5 il Sibirə sürgün edilmiş, 1942-ci ildə isə Sibir sürgünündə dünyasını dəyişmişdir. Gülarə

Qədirbəyovanın həyat yoldaşı Asəf Rəhmanov 1938-ci il yanvarın 3-də güllələnmiş, qardaşı Kərim Qazıyev isə Müsavat Partiyasının fəal üzvü kimi sürgün edilmişdir.

**IV İştirakçı Quba Qızlar Seminariyasının rəhbəri Sənubər Əyyubova haqqında məlumata keçid alır.**

Sənubər Nəsib qızı Əyyubova 1905-ci ildə indiki Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. Onun müəllimlik fəaliyyəti Quba ilə bağlıdır. Sənubər dörd il Quba Qızlar Seminariyasına rəhbərlik edib və burada qadınlar klubunu açıb. O, Quba Qızlar Seminariyasına rəhbərlik etdiyi zaman qızların təhsilinə, təlim-tərbiyə işlərinə ciddi yanaşırdı. Sənubər 1928-ci ildə Qubanın prokuroru Mehdi Məhərrəmovla ailə qurur. Sonra ailə Bakıya köçür. Mehdi Respublika prokurorunun müavini, Sənubər isə maarif komissarlığında şöbə müdiri vəzifələrində çalışırdılar. 1935-ci ildə Sənubər Əyyubova indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix-coğrafiya fakültəsinin dekanı təyin edilir. Lakin 20 iyul 1937-ci ildə onlar həbs edilir və repressiyaya məruz qalırlar. Həyat yoldaşı Mehdi Məhərrəmov həbsxanada güllələnir, Sənubər isə “xalq düşməni”nin həyat yoldaşı kimi Qazaxıstanın “ALJİR” düşərgəsinə sürgün edilir. 8 illik sürgün həyatından sonra Sənubər 20 iyul 1945-ci ildə azadlığa çıxır və 1947-ci ildə Azərbaycana qayıdır. Bir müddət o, Kürdəmir və Şamaxıda baytar həkimi işləyir. 1956-cı ildə Sənubərə bəraət verilir və o, Bakıda yaşamaq hüququnu alır. Sənubər Əyyubova 1970-ci ildə Bakıda vəfat edir.

*Akmola: “Qadınlar üçün yerdə cəhənnəm”*

Qeyd etdiyimiz kimi, o dövrdə Qazaxıstan Stalinin hökmü ilə xalqların zindanına çevrilmişdi. Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülmüş və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnmişdir.

Stalin repressiyalarının qurbanı olmuş şəxslərin ailə üzvləri olan qadınların bu düşərgədəki acı taleləri də o dövrün dəhşətlərindəndir. Bu qadınların məcburi saxlanıldığı islah əmək düşərgəsi sayılan, işgəncə tətbiqinə görə analoqu olmayan Akmola düşərgəsini “Qadınlar üçün yerdə cəhənnəm” adlandırıblar. Bu düşərgəyə xalq düşməni adı ilə güllələnlərin həyat yoldaşlarını sürgün ediblər. Düşərgədə cəza çəkən qadınlar öz aralarında cəhənnəmi xatırladan bu məkana qeyri-rəsmi “ALJİR” adası (Акмолинский лагерь жен изменников Родины) adını qoyublar. Düşərgə hazırda Qazaxıstanın paytaxtı olan Astanadan çox da uzaqda olmayan səhralığın ortasında salınıb. ALJİR-Akmola siyasi repressiya qurbanları düşərgəsində Azərbaycan Respublikasının dövlət himninin müəllifi, görkəmli şair Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanım da daxil olmaqla, 44 azərbaycanlı qadın sürgün həyatı yaşayıb. Sürgün olunan qadınların arasında həmçinin Fətəli xan Xoyskinin qızı Tamara Xoyskaya və Quba Qızlar Seminariyasının rəhbəri Sənubər Eyyubova kimi onlarla azərbaycanlı qadın var idi.

Düşərgədə cəza çəkənlərin yaşam tərzi ağılasığmaz dərəcədə ağır olub. Qış fəslində havanın temperaturunun mənfi 40 dərəcə olduğu halda sıra baxışına düzülmək üçün bir dəqiqə vaxt verilib. Verilmiş müddətdə sırada olmayanları cəza gözləyib. Düşərgədə saxlanılan qadınlara düşərgədə nəzarət üçün saxlanılan itlərə verilən yemək verilib. Çox nadir hallarda onlara düşərgədə xidmət edənlər üçün kəsilmiş donuz və inəklərin ayaqları verilib ki, nə vaxtsa alim, həkim, müəllim, dövlət xadimlərinin arvadları üçün bu, sözün əsl mənasında bayram payı sayılıb. Burada cəza müddəti 5 ildən 10 ilə qədər olub. Amma 1941-ci ildə müharibə başlananda cəza müddəti qeyri-müəyyən vaxta qədər uzadılıb. Yəni, cəza

müddəti başa çatanlar bu cəhənnəm məkanından xilas ola bilməyiblər. Həmçinin düşərgədə çox sərt daxili rejim qaydaları hökm sürüb. Bu qaydaları pozanlara isə rejim qaydalarından da daha sərt cəzalar tətbiq edilib. Düşərgədəki qadınlara mənəvi əzab vermək üçün yerli "NKVD" orqanlarının əməkdaşları tez-tez görüşlər keçiriblər. Onlar qadınlara övladları haqqında məlumat veriblər, bildiriblər ki, uşaqlar valideynlərinə xalq düşməni kimi nifrət edirlər və heç vaxt onlarla görüşmələrini arzu etmirlər.

30 hektar ərazidə yerləşən düşərgədə ilk tikinti işlərini, barakları, tikiş sexlərini, inzibati və yardımçı otaqları ilk sürgünə göndərilən qadınlar tikiblər. Düşərgənin tikintisi üç növbədə aparılıb. Təkcə altı ay müddətindəki tikinti zamanı soyuqdan 98 nəfər qadın ölüb. Akmola düşərgəsində mövcud olduğu illər ərzində 18 min qadın (bəzi versiyalara görə 26 min) cəza çəkib. Akmola düşərgəsinin fəaliyyəti 1953-cü ildən dayandırılsa da, 1958-ci ilə qədər bu düşərgədə cəza çəkən qadınlara Qazaxıstanı tərk etmək qadağan olunub. Hazırda düşərgənin ərazisində muzey fəaliyyət göstərir, həmçinin ərazidə çox böyük xatirə kompleksi də yaradılıb.

**F.Köçərli adına RUK – nın Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

***Kitablar***

**Atilla İ.** Hüseyn Cavid: Mərd olun, mərd ölün. - Bakı : Qanun, 2010. - 288 s.

**Carçıyev S.** Bir kəndin repressiyası : Məxfi sənədlər əsasında. - Bakı : Nərmin, 2018. - 150 s.

**Quliyev İ.** Ədəbiyyatımızın azadlıq mücadiləsi. - Bakı, 2005. - 104 s.

**Məmmədova Ş.** Anaların fəryadı. - Bakı : Gənclik, 2006. - 508 s.

Soyqırım analardan başlanır. - Bakı : Vətən, 2003. - 224 s.

**Şüküroğlu L.** Cümhuriyyət hökuməti repressiya məngənəsində. C. 1. - Bakı : Şirvannəşr, 2000. - 296 s.

***Dövrü mətbuat materialları***

1937-ci ildə 29 min ziyalımız güllələnib : Günahsızlar. // Azərbaycan. - 2019. - 23 yanvar. - № 17. - S. 7.

**Azadi S.** Repressiya qurbanı olmuş qadınlarımız : Onların tükürpədici həbsxana həyatlarının hər anı ağlasığmaz faciələrlə doludur // İki sahil. - 2023. - 8 mart. - № 43. - S. 7.

**Cəfərov F.** 37-ci ilin repressiya qurbanlarından biri: arxiv sənədlərinin dili ilə : Hüseyn Cavid -130 // Respublika. - 2012. - 13 oktyabr. - № 230. - S. 6.

**Əliyeva İ.** Acı həqiqətlər : Yaddaşın mühakiməsi // Azərbaycan. - 2019. - 23 yanvar. - № 17. - S. 7.

**Əliyeva İ.** Amansız rejimin qanlı izləri // Azərbaycan. - 2023. - 13 aprel. - № 76. - S. 11.

**Əliyeva İ.** Bir insan haqqında yalan və həqiqət : repressiya qurbanlarından Hənəfi Zeynallı haqında // Azərbaycan. - 2010. - 19 iyun. - № 130. - S. 6.

**Əliyeva İ.** Güllələnən qurultay : Repressiyaya uğrayan ziyalıların əksəriyyəti I Bakı türkoloji Qurultayının nümayəndələri olub // Azərbaycan. - 2017. - 29 oktyabr. - № 238. - S. 6.

**Əliyeva İ.** Həyatı gülləyə tuş gəldi : repressiya qurbanları // Azərbaycan. - 2015. - 5 mart. - № 51. - S. 10.

**Əliyeva İ.** Qırmızı terror // Azərbaycan. - 2020. - 24 iyul. - № 144. - S. 11.

**Əliyeva İ.** Nikbin nəğmələrində siyasi motivlər "tapdılar" : Azərbaycanın ilk peşəkar qadın pianoçusu repressiya qurbanı oldu // Azərbaycan. - 2012. - 28 avqust. - № 190. - S. 7.

**Əliyeva İ.** Ölümə meydan oxuyan həqiqətlər : Repressiya qurbanları // Azərbaycan. - 2017. - 27 iyul. - № 160. - S. 5.

**Əliyeva İ.** Uydurulmuş cinayətin amansız cəzası : 1937-ci il repressiya qurbanlarından olan pedoqoq maarif komissarı Çuvarlinski haqqında // Azərbaycan. - 2012. - 16 sentyabr. - № 207. - S. 6.

**Əliyeva İ.** Yarımçıq ömrün hekayəti : repressiya qurbanları Bəkir Çobanzadə // Azərbaycan. - 2012. - 2 sentyabr. - № 195. - S. 6.

**Əliyeva İ.** Zor gücünə məcburi həbslər // Azərbaycan. - 2023. - 5 aprel. - № 69. - S. 11.

**Əliyev Y.** Repressiya - bəşəriyyət əleyhinə törədilmiş vəhşilik aktı : ADR-90 // Xalq qəzeti. - 2008. - 25 may. - S. 8.

**Əliyev Z.** Repressiya yellərindən keçən sənət yolu : Məhəmməd Əmin Rəsulzadənin oğlu Azər Rəsulzadə və nəvəsi Rais Rəsulzadə haqqında // Mədəniyyət. - 2014. - 31 yanvar. - № 8. - S. 12.

**Əmircanova Q.** Repressiya dövrünün faciəsi // İşıq. - 2018. - № 1(93). - S. 14-17.

**Əsədov B.** Qırılmış ömür : Repressiya qurbanları // Azərbaycan. - 2007. - 11 oktyabr. - S.7.

**Əsgərov B.** Maqadanın açılmamış arxivi : 1937-ci il repressiya qurbanları // Respublika. - 2010. - 23 oktyabr. - N 232. - S. 4. ; 7 noyabr. - № 244. - S.8. ; 6 noyabr. - № 243. - S.8.

**Fərəcova Z.** Şuşadan başlayan repressiyalar // Azərbaycan. - 2022. - 27 yanvar. - № 18. - S. 7.

Haqsızlığın daha bir qurbanı : Cümhuriyyət tələbəsi Surxay Şahsuvarov da canını sovetlərdən qurtara bilməyib // Kaspi. - 2016. - 6 yanvar. - № 1. - S. 15.

**Xəlilzadə F.** Günahsız Şuşalılar : repressiya qurbanları // Azərbaycan. - 2012. - 9 dekabr. - № 275. - S. 7.

**Xəlilzadə F.** İşıqlı ömrün qara bəxti : 37-ci illərdə repressiya məruz qalmış, şair, yazıçı və ədəbiyyatşünas alim Hacıkərim Sanılı haqqında // Azərbaycan. - 2012. - 7 aprel. - № 74. - S. 7.

**Xəlilzadə F.** Qara yelin apardığı - Əhməd Cavad : repressiya qurbanları // Azərbaycan. - 2007. - 6 may. - S. 8.

**Xəlilzadə F.** Repressiya dalğasının qurbanı : Azərbaycan Yazıçılar Birliyi - 75 // Azərbaycan. - 2009. - 30 yanvar. - S. 7.

**İsayev Ə.** Erməni fitvasının qurbanı : Repressiya qurbanları / Ə. İsayev // Azərbaycan. - 2008. - 1 aprel. - S. 5.

**İsayev Ə.** Tarixin qan yaddaşı : repressiya qurbanları // Azərbaycan. - 2009. - 14 aprel. - S. 6.

**Kənan A.** Müstəqilliyimizə imza atanın faciəsi : Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimi, repressiya məruz qalmış Cavad bəy Məlikyeqanov haqqında // Füyuzat. - 2014. - № 3. - S. 12-18.

**Kənan A.** Səhnəmizin ilk repressiya qurbanı : Ülvi Rəcəb // XX əsrdə repressiyaya məruz qalanlar. - 2011. - S. 67-73.

**Kənan A.** Yeddi "günahkar" qardaşdan biri : repressiyaya məruz qalan Məmməd Ələkbərov haqqında // El. - 2011. - № 11. - S. 62-67.

**Qaliboğlu E.** Repressiya 1937-72-ci illər // Mədəniyyət. - 2009. - 30 oktyabr. - № 79. - S. 7.

**Qəniyev E.** Sağalmayan yaralar // Azərbaycan. - 2023. - 5 aprel. - № 69. - S. 11.

**Məmmədova S.** Cümhuriyyət sevdalı repressiya qurbanı : Ümgülsüm Sadıqzadə // Cümhuriyyətə işıq saçan qadınlar. - Bakı : Nurlar, 2018. - S. 28-33.

**Ömərov V.** Repressiyaya məruz qalan qadınlarımız // Səs. - 2019. - 30 yanvar. - № 19. - S. 15.

Repressiya // Azərbaycan. - 2021. - 14 fevral. - № 34. - S. 7.

Repressiya: Gizlin və gerçəkləri ilə... : "Ədəbiyyat qəzeti"nin müzakirə saatı // Ədəbiyyat qəzeti. - 2018. - 20 yanvar. - № 2. - S. 20-22. ; 27 yanvar. - № 3. - S.20-24.

Repressiya qurbanı olmuş ziyalıların həyatından məqamlar // Azərbaycan. - 2020. - 19 fevral. - № 37. - S. 7.

**Sabiroğlu F.** İki ölüm arasında : Repressiya illəri // Füyuzat. - 2009. - № 2. - S. 6-13.

**Salmanlı R.** Azadlıq fədaisi : repressiya qurbanı Qazanpapaq Məhəmməd haqqında // Azərbaycan. - 2016. - 14 yanvar. - № 8. - S. 7.

**Salmanlı R.** Azadlıq mübarizi : Repressiya qurbanı - Hacıbaba Cəbiyev // Azərbaycan. - 2009. - 17 aprel. - S. 6.

**Salmanlı R.** Bir ailənin faciəsi : repressiya qurbanı Məhəmməd Qurbanov və onun ailəsi haqqında // Azərbaycan. - 2011. - 5 noyabr. - № 246. - S. 7.

**Salmanlı R.** Bir ailənin faciəsi : 1937-ci il repressiyaya məruz qalmış Polad bəy haqqında // Azərbaycan. - 2010. - 13 aprel. - № 77. - S. 8.

**Salmanlı R.** Bolşevik haqsızlığının qurbanı : Kamal Həsənov haqqında // Azərbaycan. - 2020. - 9 iyun. - № 108. - S. 7.

**Salmanlı R.** Çırağı söndürülən ocaqlar : repressiya qurbanları // Azərbaycan. - 2012. - 4 noyabr. - № 246. - S. 7.

**Salmanlı R.** Əksinqilabci kimi gullələnən şair // Azərbaycan. - 2017. - 4 noyabr. - № 243. - S. 7.

**Salmanlı R.** Əvvəl varını aldılar... : repressiya qurbanlarından Soltan Əkbərov haqqında // Azərbaycan. - 2010. - 20 fevral. - № 40. - S. 7.

**Salmanlı R.** Gizli güllələnən alim : 1937-ci ilin repressiya qurbanı olmuş görkəmli folklorşünas alim Vəli Xuluflu haqqında // Mədəni Həyat. - 2013. - № 12. - S. 56-60.

**Salmanlı R.** Güllələnəndən 25 il sonra verilən bəraət : repressiya qurbanı Ədil Bədirbəyov haqqında // Azərbaycan. - 2011. - 9 oktyabr. - № 223. - S. 6.

**Salmanlı R.** Günahsız müqəssir : repressiya qurbanı Əşrəf Bədirbəyov haqqında // Azərbaycan. - 2010. - 23 sentyabr. - № 207. - S. 6.

**Salmanlı R.** Xalqının azadlığı üçün həyatından keçdi : Repressiya qurbanları // Azərbaycan. - 2015. - 6 sentyabr. - № 194. - S. 6.

**Salmanlı R.** Xəyanətin qurbanı // Azərbaycan. - 2020. - 19 fevral. - № 37. - S. 7.

**Salmanlı R.** İstiqlal mübarizi : Repressiya qurbanları : Gizli ölüm düşərgəsində 8 il yaşayıb sağ qayıdan doktor Cahangir Ağazadəni Bakıda güllələdilər // Respublika. - 2012. - 17 avqust. - № 183. - S. 5. ; 18 avqust. - № 184. - S.5.

**Salmanlı R.** Məşəqqətli ömür : 1930-1937-ci illər repressiya qurbanlarından biri Ələsgər Şahbazov haqqında // Azərbaycan. - 2009. - 24 sentyabr. - № 211. - S. 7.

**Salmanlı R.** Ölüm kamerasında "ürəyi dayanan" şair : repressiya qurbanlarından olan Hacı Kərim Sanılı haqqında // Azərbaycan. - 2010. - 27 iyul. - № 160. - S. 4.

**Salmanlı R.** "Sürgün edilib" adıyla Bakıda güllələndi : Repressiya qurbanları // Azərbaycan . - 2015. - 8 fevral. - № 30. - S. 7.

**Salmanlı R.** Yarını aldılar, özünü də məhv etdilər : 1937-1938-ci illərin repressiya qurbanlarından biri Cabbar Məmmədəliyev haqqında // Azərbaycan. - 2014. - 15 noyabr. - № 249. - S. 6.

**Şərifli B.** Gecə yarısı döyülən qapılar... : repressiya qurbanları // Azərbaycan. - 2015. - 15 sentyabr. - № 201. - S. 7.

**Şərifli B.** 1937-ci ilin vahiməli gecələri : repressiya qurbanı Məhəmməd Cuvarlinski // Azərbaycan. - 2017. - 19 noyabr. - № 255. - S. 7.

**Sərvi S.** Ağlıma gəlməzdi ki, onu güllələyəcəklər : repressiya qurbanı Xədicə Qayıbova haqqında // Hüquqi dövlət və qanun : Elmi-nəzəri, təcrübi aylıq jurnal. - 2013. - № 8. - S. 69-72.

**Turan A.** Bəkir Çobanzadə - milli kədərdən doğulan, 44 yaşında güllələnən böyük alim // Ədəbiyyat qəzeti. - 2022. - 22 yanvar. - № 2. - S. 8-9.

**Vahid T.** Repressiyaya məruz qalan aşıqlar : Mirzə Bilal haqq aşığı idi, kimsə onun ruhunu satın ala bilməzdi // Mədəniyyət. - 2012. - 3 avqust. - № 56. - S. 15.

**Həqiqət yeni-yeni adlar bulacaq,**
**kainat olduqca, onlar qalacaq**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**